Sonra Dövlət İmtahan Mərkəzi Direktorlar Şurası sədrinin müavini Bəhram Xəlilov dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatların uğurlu nəticələrindən bəhs edib. Bildirib ki, dövlət qulluqçularının seçimi sisteminin formalaşdırılmasında sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə cavab verən prinsiplər həlledici vasitədir. Bu sahədə Dövlət İmtahan Mərkəzinin üzərinə düşən əsas vəzifələrdən biri də dövlət idarəçiliyi sistemini inkişaf etdirmək məqsədilə dövlət qulluğuna qəbulu mərkəzləşdirilmiş qaydada, müsabiqə və səmərəli əsaslarla aparmaqdan ibarətdir.

### Azərbaycanda çevik dövlət qulluğu sistemi formalaşıb

Elmi-praktik konfransda DİA-nın rektoru, akademik Urxan Ələkbərov "Dövlət idarəçiliyində yeni texnologiyalar: Azərbaycan Respublikasının innovativ təcrübəsi beynəlxalq təşkilatların sənədlərində" mövzusunda məruzə ilə çıxış edib.

Azərbaycanda çevik dövlət qulluğu sisteminin formalaşdığını qeyd edən rektor ölkədə dövlət quruculuğu, dövlət idarəetmə sisteminin formalaşması və dövlət qulluğunun inkişafı proseslərində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini diqqətə çatdırıb. Dövlət idarəçiliyi üçün milli kadr potensialının formalaşdırılmasının müasir dövlət quruculuğu prosesinin tərkib hissəsi olduğunu bildirən Urxan Ələkbərov dövlət qulluğu sisteminin təkmilləşdirilməsi və inkişafı, bu sahədə hüquqi bazanın tənzimlənməsi məsələlərini Prezident İlham Əliyevin daim diqqət mərkəzində saxladığını vurğulayıb. Eyni zamanda, o, dövlət qulluğu üçün kadr potensialının gücləndirilməsinin ölkədə inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi proseslərini daha da sürətləndirəcəyini bildirib.

Məruzədə beynəlxalq təşkilatların 2018-2019-cu illərdə dərc edilən rəsmi statistik məlumatları təhlil olunub. Həmçinin Dünya İqtisadi Forumunun təsisçisi və fəxri prezidenti Klaus Şvabın hazırladığı qlobal hesabat nəzərdən keçirilib. Qeyd olunub ki, həmin hesabatda Azərbaycan dünyanın ən səmərəli sosial siyasət həyata keçirən ölkəsi kimi xarakterizə edilib. Azərbaycan bu göstərici üzrə ABŞ, Almaniya, Danimarka, Kanada, Fransa, Yaponiya kimi inkişaf etmiş ölkələri geridə qoyub.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq vəziyyətindədir.

Konfrans iştirakçıları Azərbaycanda tətbiq edilən və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, komplimentar və kompensasion texnologiyaların mahiyyəti barədə məlumatlandırılıb. Həmin texnologiyaların işlənilməsi və həyata keçirilməsi prosesində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi rolu olduğu diqqətə çatdırılıb. Bildirilib ki, məhz dövlətimizin başçısının tətbiq etdiyi idarəçilik texnologiyaları sayəsində Davos İqtisadi Forumunun 2018-ci ilin yanvarında dərc olunan hesabatında inklüziv inkişaf indeksinə görə Azərbaycan dünyada üçüncü yerdə qərarlaşaraq iqtisadi imkanları daha yüksək olan ölkələrin çoxunu geridə qoyub. Bu və digər təqdirəlayiq nəticələr ölkənin səmərəli idarə olunmasından və iqtisadi imkanlardan maksimum istifadə edilməsindən xəbər verir.

Sonra DİA-nın rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılması institutunun direktoru, professor Gülnarə Qurbanova "Dövlət qulluqçularının təhsilində davamlı inklüziv inkişaf naminə innovativ metodlar", Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Dövlət qulluğu məsələləri şöbəsinin müdiri Vüqar Əsgərov "Azərbaycanda dövlət qulluğuna qəbul: cari vəziyyət, hədəflər və çağırışlar", Mərkəzin İctimaiyyətlə əlaqələr və kargüzarlıq şöbəsinin mətbuatla iş və elektron kommunikasiya sektorunun müdiri Xanlar Xanlarzadə "Dövlət qulluğu ilə bağlı elektron xidmətlər" mövzularında məruzələrlə çıxış ediblər. Məruzələrdə dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində əldə olunan uğurlardan bəhs edilib.

Daha sonra DİA-da rəhbər dövlət idarəçiliyi sahəsində ixtisaslaşaraq məzun olan dövlət qulluqçularına magistr dərəcəli diplomlar təqdim edilib.

Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclisin, Konstitusiya Məhkəməsinin, müxtəlif nazirliklərin, Heydər Əliyev Mərkəzinin, Ombudsman Aparatının, Mərkəzi Seçki Komissiyasının, Baş Prokurorluğun, dövlət komitələri və xidmətlərinin, Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və rayon icra hakimiyyətlərinin nümayəndələri iştirak ediblər.

**AZƏRTAC**

# Dövlət Komitəsinin sədri Kürdəxanıda məcburi köçkünlərlə görüşüb

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkünlər üçün yeni istifadəyə verilmiş qəsəbədə görüş keçirib. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib.**





Dövlət Komitəsinin sədri qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin mühüm istiqamətləri, görülən işlər, ölkə rəhbərinin qarşıya qoyduğu vəzifələr barədə danışıb. Bildirilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirir. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülür, Bakıda və regionlarda yeni yaşayış kompleksləri inşa edilir. Məcburi köçkünlərin mənzil, təhsil, sağlamlıq problemlərinin həllinə Birinci vitse-prezident xanım Mehriban Əliyeva da xüsusi diqqət və qayğı göstərir, bu sahədə mühüm işlər görür.

Rövşən Rzayev görüşdə iştirak edən məcburi köçkünlərin çoxsaylı müraciətlərini dinləyib, suallarını cavablandırıb. Müraciətlər mənzil-məişət şəraiti və su təchizatının yaxşılaşdırılması, məşğulluğun təmin edilməsi, iş yerlərinin açılması və s. məsələlərlə bağlı olub. Yazılı və şifahi müraciətlərin hər biri qeydə alınıb. Onlara Dövlət Komitəsində baxılacağı, müvafiq qaydada rəsmi cavab veriləcəyi bildirilib.

Görüşdə çıxış edən məcburi köçkünlər dövlətimizin onlara göstərdiyi diqqət və qayğıdan razılıqlarını ifadə edib, ölkə rəhbərliyinə təşəkkürlərini bildiriblər.

**AZƏRTAC**

# Müdafiə Sənayesi Nazirliyinin məhsulları Moskvada keçiriləcək "ARMY-2019" sərgisində nümayiş olunacaq

**İyunun 25-dən 30-dək Moskvada "Patriot-Ekspo" Konqres-Sərgi Mərkəzində "ARMY-2019" V Beynəlxalq Hərbi-Texniki Forum keçiriləcək. Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşkilatçılığı ilə təşkil olunacaq tədbirdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (MSN) də iştirak edəcək.**

MSN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dünyanın ən böyük silah və hərbi texnika sərgilərindən birinə çevrilən bu forumda Müdafiə Sənayesi Nazirliyi ilk dəfə stendlə təmsil olunacaq və məhsullarını nümayiş etdirəcək. Bununla əlaqədar Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayevin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti Moskvada səfərdə olacaq.

"ARMY-2019" sərgisində 120 kvadratmetr sahədə təşkil olunacaq milli pavilyonda nazirlik əsasən ixracyönümlü məhsullarını - snayper tüfənglərini, avtomatları, tapançaları, hücum pulemyotlarını, qumbaraatanları, pilotsuz uçuş aparatlarını, minaatanları, müxtəlif çaplı döyüş sursatlarını və digər məmulatlarını nümayiş etdirəcək. Nazirliyin




müəssisələrində istehsal olunan 30 millimetrlik 2A42 topu və 7,62 millimetrlik "Yırtıcı" yarımavtomat snayper tüfəngi xaricdə keçirilən beynəlxalq sərgidə ilk dəfə nümayiş olunacaq.

Müdafiə və ikili təyinatlı məhsulların nümayiş etdiriləcəyi "ARMY-2019" sərgisi səmərəli danışıqlar aparmaq və hərbi-texniki sahədə təcrübəli mütəxəssislərlə əməkdaşlıq etmək üçün geniş imkanlar da yaradacaq.

Sərgi çərçivəsində nazir müavini Yəhya Musayevin Rusiya Federasiyasının dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və aparıcı şirkət nümayəndələri ilə görüşləri də planlaşdırılır. Görüşlərdə hərbi-texniki sahədə əlaqələrin inkişaf etdirilməsi və yeni birgə layihələrin reallaşdırılması istiqamətində danışıqların aparılması nəzərdə tutulur.

Həmçinin tədbir iştirakçılarına və ziyarətçilərə gələn il Bakıda keçiriləcək "ADEX-2020" IV beynəlxalq müdafiə sərgisi ilə bağlı məlumat veriləcək və dəvətlər çatdırılacaq.

Qeyd edək ki, "ARMY-2019" sərgisi Müdafiə Sənayesi Nazirliyinin son iki ayda stendlə təmsil olunduğu üçüncü beynəlxalq sərgidir. Bu ilin aprel-may aylarında Türkiyədə "İDEF-2019" və Belarusda "MİLEX-2019" sərgilərinə qatılan MSN hərbi təyinatlı məhsullarını nümayiş etdirib.

**AZƏRTAC**

# Jurnalistika fakültəsinin magistrantları dissertasiya işlərini müdafiə ediblər

**İyunun 21-də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində magistratura səviyyəsi üzrə dissertasiya işlərinin müdafiəsi keçirilib. Magistrantlara uğurlar arzulayan müdafiə şurasının sədri, tanınmış jurnalist, Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının prezidenti, Dünya Xəbər Agentlikləri Konqresi Bürosunun üzvü Aslan Aslanov magistrantların uğurlu işlər ərsəyə gətirdiyini xüsusi vurğulayıb, məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Müdafiə şurasının sədri deyib: "Çox istərdim ki, jurnalistika fakültəsinin yuxarı kurs tələbələri universitet auditoriyalarında qazandıqları nəzəri bilikləri ölkənin aparıcı KİV-lərində əməli təcrübə ilə daha da möhkəmləndirsinlər. Gələcəyin jurnalistləri daha çox dil bilməli, arxivlərdə işləməyi bacarmalı, müasir informasiya texnologiyalarından daha mükəmməl istifadə vərdişlərinə yiyələnməlidirlər. Bunlara isə mətbu qurumlarda intensiv təcrübə yolu ilə yiyələnmək mümkündür".**



İdarə Heyətinin sədri AZƏRTAC ilə BDU-nun jurnalistika fakültəsi arasında müqavilə bağlanmasını təklif edib. Belə ki, fakültənin 10-15 bakalavr və magistrantı Agentlikdə uzunmüddətli istehsalat təcrübəsi keçər, redaksiyaların iş prinsipi ilə tanış olar, xəbər istehsalı prosesində iştirak edər və biz özünü doğruldan məzunları işə götürə bilərik. A.Aslanov məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra 7 magistrant "XX əsrin əvvəllərində Azərbaycanda çıxan bir mətbu orqanın transliterasiyası", "Kaspi" - müasir mətbuatın müstəqil qəzet modeli kimi", "Bədii publisistika sənədlilik və müəllif təxəyyülü kontekstində", "Azərbaycan satirik jurnalistikasında xalq yaradıcılığından istifadənin forma və metodları", "Müasir mətbuatda vətənpərvərlik mövzuları", "Dövlətçiliyin və milli maraqların qorunmasında medianın rolu", "Azərbaycan publisistikasında müstəqillik ideyaları ("Odlar Yurdu" və "Yeni fikir" qəzetlərinin materialları əsasında. 1988-1991)" mövzularında dissertasiya işlərini müdafiə edib. Onlar dissertasiya işləri ilə bağlı sualları cavablandırdıqdan sonra opponent rəyləri dinlənilib.

Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Zifəroğlu magistrantların dissertasiya işlərinin müdafiəsində AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun iştirakını, təklif və tövsiyələrini yüksək qiymətləndirib, müdafiəyə buraxılan işlər haqqında müsbət fikirlərini söyləyib.

**AZƏRTAC**

# UNEC ilə "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında memorandum imzalanıb

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında təhsil, elm və təlim-tədris sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.





İmzalanma mərasimində UNEC-in rektoru, professor Ədalət Muradov, "Azərbaycan Sənaye Korporasiyası" ASC Kamran Nəbizadə, universitetin professor-müəllim heyəti və korporasiyanın nümayəndələri iştirak edib.

Rektor Ədalət Muradov bildirib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Bu isə təhsil prosesini real iqtisadiyyatn tələblərinə uyğunlaşdırılmağı tələb edir. Rektor bu istiqamətdə UNEC-də həyata keçirilən yeniliklərdən söz açıb, universitetin iş dünyası ilə strateji əməkdaşlıq platforması olan UNEC2B və job.unec.edu.az virtual əmək birjasının əhəmiyyətindən danışıb. Universitetin bir çox nüfuzlu şirkət və holdinqlərlə əməkdaşlıq etdiyini deyən Ə.Muradov "ASK" ASC ilə əməkdaşlığın mühüm məqamlarını da diqqətə çatdırıb. Bildirib ki, əməkdaşlıq çərçivəsində UNEC məzunları Azərbaycan Sənaye Korporasiyasının mütəxəssis bazasına daxil ediləcək, UNEC-in 3 tələbəsinə fərdi təqaüdlər təsis olunacaq. Eyni zamanda "ASK" ASC-nin əməkdaşları üçün UNEC-də ixtisasartırma kursları təşkil ediləcək.

"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin yaranma tarixi və hazırkı fəaliyyətindən bəhs edən Korporasiyanın baş direktoru Kamran Nəbizadə qeyd edib ki, "ASK" ASC-nin qarşısında duran əsas məqsədlərdən biri müəssisələrdə işin düzgün təşkili, rentabelliyi yüksəltmək, istehsalı genişləndirmək, müəssisələr arasında əməkdaşlığı gücləndirməkdir. İxtisaslı və peşəkar kadrlar bu məqsədlərin əldə edilməsində böyük rol oynayır. Korporasiyanın baş direktoru onu da bildirib ki, Memorandumun uğuru bu anlaşmanın ikitərəfli şəkildə fəal icrasından asılıdır.

Sonda rektor Ədalət Muradov və "ASK" ASC-nin sədri arasında əməkdaşlıq memorandumu imzalanıb.

Sənədə əsasən, UNEC tələbələri "ASK" ASC və onun törəmə müəssisələrində təcrübə keçəcəklər, tələbələrin biznes ideyalarının formalaşdırılmasına, innovativ təşəbbüslərinə, startap fəaliyyətinə, onların praktiki tətbiqinə dəstək göstəriləcək. Ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədi ilə birgə tədqiqatlar aparılacaq, beynəlxalq təşkilatların və fondların qrant layihələrində birgə iştirak ediləcək, proqramlar həyata keçiriləcək. Eyni zamanda "ASK" ASC-nin mütəxəssisləri tələbələrin bakalavr buraxılış və magistrlik dissertasiyası işlərinə rəhbər, müxtəlif mövzular üzrə mühazirəçi qismində cəlb olunacaq. Memorandumda "dəyirmi masa"ların, konfransların, seminarların, "yay məktəbləri"nin təşkili, "ASK" ASC və onun törəmə müəssisələrinin UNEC-in elmi-tədqiqat və tədris-metodiki strukturundan istifadəsi, tələbələrin arasında müsabiqələrin keçirilməsi, qaliblərin mükafatlandırılması və digər istiqamətlərdə əməkdaşlıq nəzərdə tutulub.

# Azərbaycanın elmi jurnalı 254 beynəlxalq nəşr arasında 10-cu yerdə qərarlaşıb

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Bakı Dövlət Universitetinin birgə təsis etdiyi "Applied and Computational Mathematics" ("Tətbiqi və Hesablama Riyaziyyatı") beynəlxalq elmi jurnalı 254 beynəlxalq nəşr arasında 10-cu yerdə qərarlaşıb.**


ISSN 1683-3511

APPLIED AND COMPUTATIONAL MATHEMATICS

An International Journal

Volume 18 № 1, 2019

CONTENTS

www.acmij.az

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, dünyanın ən mötəbər elmi-analitik informasiya bazalarından olan "Clarivate Analytics" (əvvəllər "Thomson Reuters") 2019-cu il üçün illik hesabatını açıqlayıb. Hesabat ötən dövr üçün sözügedən bazanın siyahısında olan yenilikləri, siyahıya daxil olan və xaric edilən elmi jurnallar, onların impakt faktorlarının (keyfiyyət dərəcəsi) dinamikası haqqında məlumatı əks etdirir. Agentliyin son hesabatına əsasən, Azərbaycanda dərc olunan "Applied and Computational Mathematics" beynəlxalq elmi jurnalının təsir əmsalı 2,365-dən qalxaraq 3,16-ya bərabər olub, yəni jurnal 19-cu yerdən 10-cu yerə yüksəlib.

Jurnalın baş redaktorlarından biri akademik Fikrət Əliyev bildirib ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə BDU-nun Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutunda dərc olunan bu jurnal Azərbaycan elm tarixində ilk və yeganə elmi nəşr olaraq 2008-ci ildə "Clarivate Analytics"in genişləndirilmiş siyahısında yer alıb.

Qeyd edək ki, bu göstərici (10-cu yer) Avropa ölkələri arasında 4-cü, keçmiş sovetlər birliyində birinci yeri təmin edir. Jurnalın bu günədək 44 nömrəsi çapdan çıxıb ki, bu nömrələrdə dünyanın 50-dən çox ölkəsini təmsil edən müəlliflərin 500-dək məqaləsi dərc olunub.

Jurnalda tətbiqi və hesablama riyaziyyatının müxtəlif sahələrinə aid yüksək səviyyəli, əsaslı rəydən keçmiş elmi məqalələr çap edilir. Nəşr olunduğu 18 il ərzində jurnal 47 ölkədən 250-dən çox elmi müəssisə ilə mübadilə həyata keçirib.

**AZƏRTAC**

# Oxuduğu doğma məktəbə ilk şəhid sərhədçinin adı verildi






**XXI əsrin ilk Milli Qəhrəmanı - sərhədçi Eltun Xaləddin oğlu İsgəndərovun anım gününün 10 illiyi ilə əlaqədar olaraq qəhrəmanın anadan olduğu Samux rayonunun Əhmədbəyli kəndində təntənəli mərasim keçirilmişdir.**

Mərasimdən öncə Samux Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Dövlət Sərhəd Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçuları, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri, qəhrəmanın doğmaları şəhid sərhədçinin əziz xatirəsini yad edərək məzarı üzərinə tər çiçək dəstələri düzmüşlər.

Daha sonra tədbir Azərbaycanın Milli Qəhrəmanı Eltun İsgəndərovun adı verilmiş Əhmədbəyli kənd tam orta məktəbində qəhrəmanın əksi olan xatirə lövhəsinin açılışı ilə davam etdirilmişdir.

Mərasimdə çıxış edənlər 2009-cu ilin iyun ayının 18-də Cəlilabad rayonunun Əsədli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində bir qrup şəxsin dövlət sərhədini Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində qanunsuz olaraq keçməyə cəhd göstərməsinin qarşısının alınması zamanı şəxsi şücaət və igidlik göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidentinin 25 iyun 2009-cu il tarixli 349 saylı sərəncamı ilə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş, vətənimizin təhlükəsizliyinin təmin olunması kimi şərəfli bir vəzifəni yerinə yetirərkən şəhidlik zirvəsinə ucalmış Eltun İsgəndərovun keçdiyi xidmət yolundan, dövlət sərhədinin mühafizəsi zamanı göstərdiyi hünərdən söz açmış və onun hu şücaətinin gənc nəslə örnək olduğunu xüsusi olaraq vurğulamışlar.

Milli Qəhrəmanın atası Xaləddin İsgəndərov oğlu ilə fəxr etməsini, Azərbaycanımızda Eltun kimi oğullarımızın sayının on minlərlə olduğunu qeyd edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə şəhid ailələrinə, döyüşlərdə sağlamlığını itirən şəxslərə və müharibə veteranlarına göstərdiyi diqqət və qayğıya görə öz ailəsi adından minnətdarlığını bildirmişdir.

Tədbirin sonunda məktəblilər tərəfindən respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr edilmiş bədii kompozisiya nümayiş etdirilmişdir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Göyçayda tibb işçilərinin peşə bayramı

Göyçayda 17 iyun - tibb işçilərinin peşə bayramı günü qeyd olunub.

Tibb işçiləri əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.



Şəhər mərkəzində davam edən tədbirdə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə rayonda insanların sağlamlığının keşiyində duran tibb işçilərini peşə bayramı günü münasibətilə təbrik edib, onlara çətin və şərəfli işlərində uğurlar diləyib.

Əziz Əliyevin, Zərifə xanım Əliyevanın ölkə səhiyyəsinin inkişafındakı xidmətlərindən danışan rayon rəhbəri Azərbaycan səhiyyəsinin tarixində bütün dövrlərdə güclü tibb işçilərinin olduğunu dilə gətirib.

Bu gün də ölkə səhiyyəsinin madditexniki bazasının möhkəmləndirilməsində, yeni, müasir xəstəxanaların tikintisində Prezident İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi xidmətlərinin olduğu qeyd edilib.

Sonra səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə fərqlənən tibb işçiləri fəxri fərman, təşəkkürnamə və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Rayon mərkəzi xəstəxanasının həkimləri Xanım Cəfərova, Sərraf Davudov və Nuranə Rəhimova çıxış edərək ölkə rəhbərliyinə tibb sahəsində çalışan insanlara göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

Tədbir konsert proqramı ilə davam edib.

**Maarif RZAYEV,**
**"Respublika".**

# Bərpa olunan enerji qanunvericiliyinin hazırlanmasına dair "dəyirmi masa"



Energetika Nazirliyinin təşkilatçılığı, "Azərenerji" ASC, "Azərişıq" ASC, Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Enerji Məsələlərini Tənzimləmə Agentliyi, bir sıra beynəlxalq şirkət və maliyyə təşkilatlarının nümayəndələrinin iştirakı ilə "Bərpa olunan enerji qanunvericiliyinin hazırlanmasında dövlət və özəl sektorun əməkdaşlığı" mövzusunda növbəti "dəyirmi masa" keçirilib, - qurumun mətbuat bölməsindən "Respublika" qəzetinə verilən məlumatda bildirilir. Tədbirdə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun, eləcə də elektrik enerjisinin satınalma, habelə bərpa olunan enerji qurğularının elektrik enerjisi şəbəkəsinə qoşulma müqavilələrinin layihələri müzakirə edilib.

Energetika Nazirliyinin Aparat rəhbəri Zaur Məmmədov nazirlik tərəfindən bərpa olunan enerji mənbələrindən istifadə sahəsində görülmüş işlərdən danışıb. Aparat rəhbəri "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının bərpa olunan enerji sahəsində ciddi irəliləyişlərə səbəb olacağını qeyd edib.

Tədbirdə qanunvericilik aktlarının hazırlanmasına məsləhətçi şirkət kimi cəlb edilmiş DNV GL şirkətinin nümayəndəsi İlka Levinqton enerjinin satınalınması və bərpa olunan enerji qurğularının şəbəkəyə qoşulması müqavilələrinin layihələri barədə danışaraq, əsas istiqamətləri diqqətə çatdırıb.

Sonra bərpa olunan enerji mənbələri potensialına malik ərazilərin seçilməsi, prioritetləşdirilməsi və hərraca çıxarılmasına hazırlıq istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə fikir mübadiləsi aparılıb.

Tədbirdə investorları maraqlandıran məsələlər müzakirə edilib, hazırlanan layihələrə dair irəli sürülən rəy və təkliflərin nəzərə alınacağı qeyd olunub.

**"Respublika".**

# Laçın şəhər 2 saylı Uşaq İncəsənət Məktəbi



Laçın şəhər 2 saylı Uşaq Musiqi Məktəbi 2000-ci ildən fəaliyyət göstərir. Məlum Qarabağ hadisələri ilə əlaqədar məktəb fəaliyyətini Saatlı rayonunun Əlisoltanlı kəndindəki köçkünlər üçün ayrılmış ərazidəki fin evlərdən birində, daha sonra isə Xırdalandakı 1 nömrəli binada davam etdirmişdir. Qeyd etmək lazımdır ki, çətinliklərə baxmayaraq, məktəb fəaliyyətini nümunəvi təşkil etdiyi üçün Laçın rayon İH-nin fəxri fərmanı ilə təltif olunmuşdur. Məktəbin direktoru, təcrübəli musiqiçi Böyükağa Abdullayevlə söhbət edərkən o bildirdi ki, fəxr etmək olar ki, ulu öndərimiz Heydər Əliyev bu məktəbdə olmuş, məktəbin bir şagirdinə qol saatı hədiyyə etmişdir. Böyükağa müəllim onu da qeyd etdi ki, dünya şöhrətli musiqiçi V.M.Rastropoviç məktəbdə olmuş, şagirdlərlə xatirə şəkli çəkdirmişdir.

Akademik C.Əliyev məktəbə yaxından kömək etmişdir. Fərəhlə qeyd etməliyik ki, burada yaradılan "Laçın qayası" adlı ansambl indi respublikamızda tanınmış kollektivlərdən hesab olunur. Ansambl tez-tez hərbi hissələrdə, məktəblərdə, qeyri-uşaq müəssisələrində olur, uşaqlar qarşısında çıxışlar edirlər.



Böyükağa müəllim qeyd etdi ki, məktəbin kollektivi respublika səviyyəsində köçkün rayonlar arasında keçirilən muğam müsabiqəsində, ulu öndərimizin doğum gününə həsr olunmuş tədbirlərdə daim fəal iştirak etmişdir. Məktəbin şagirdlərindən Ağayar İbadzadə, Şükran Ağalarov fəal çıxışlarına görə Laçın Rayon Təhsil və Mədəniyyət şöbələrinin fəxri fərmanları ilə təltif olunmuş və Mədəniyyət Nazirliyinin tərifnaməsini almışlar. Onu da qeyd etmək lazımdır ki, "İstedadlı uşaqlar" müsabiqəsində məktəbin şagirdi Şəhriyar Mayılzadə Mədəniyyət Nazirliyinin diplomuna layiq görülmüş, eyni zamanda A.Zeynallı adına Musiqi Kollecinə qəbul olmuşdur. Eyni zamanda məktəbin bir çox məzunu musiqi təmayüllü ali və orta ixtisas məktəblərinə qəbul olmuşlar. Belə ki, məzun Coşqun Məmmədli Bakı Humanitar Kollecin səs şöbəsinə daxil olmuşdur. Gənclər Fondunun təşkil etdiyi müsabiqədə məktəbin 4 nəfər şagirdi qalib olmuşlar. Leyla İbrahimova "Yolumuz Heydər yoludur, bu yol Vətənə doğrudur" ümumrayon müsabiqəsində fəxri fərmana layiq görülmüşdür. Mədəniyyətşünsalıq üzrə elmi-metodiki mərkəzin təşkil etdiyi müsabiqədə xanəndəlik üzrə regional festivalda məktəbin şagirdləri T.Əlizadə və Ülkər Mirzəzadə Fəxri fərmana layiq görülmüşlər.



Məktəbin xor kollektivi isə hər il respublikada keçirilən II səsli xor müsabiqəsində fəal iştirak etmişdir. İndi məktəbdə 30 nəfərdən çox müəllimin dərs dediyi 100-ə yaxın şagird musiqi savadını artırmaq üçün bütün real imkandan maksimum istifadə edirlər. Elə bunun nəticəsidir ki, hər il respublikamızın musiqi təmayüllü ali və orta ixtisas məktəblərinə daxil olurlar. Şəhriyar Mayılzadə və Ülkər Mirzəzadə Milli Konservatoriyada təhsilini davam etdirir. Şagirdlərin bir musiqiçi kimi yetişməsində müəllimlərdən Gültəkin Hüseynova, Kəmalə Cavadova, Günel Gülməmmədova, Sevinc Əliyeva, Şaiq Rzayev, Adil Rəhimov, Sədaqət Həsənova və başqalarının əməyi böyükdür.

**Zabit CAVADOV,**
**"Respublika".**

*23 iyun Dövlət qulluqçularının peşə bayramıdır*

# Dövlət qulluqçusu xalqının və dövlətinin mənafeyinə xidmət edir



**Dövlətin adından onun siyasətini həyata keçirən və başlıca iqtisadi, sosial, mədəni, siyasi problemlərini həll edən bir institut kimi dövlət qulluğu hər zaman siyasi, sosial-iqtisadi, mənəvi inkişafın mərkəzində dayanır. Dövlətin strateji hədəflərinin, onun müəyyən etdiyi yaxın məqsəd və vəzifələrin həyata keçirilməsi dövlət qulluğunu özü üçün peşə seçmiş insanların gərgin, bir çox hallarda isə fədakar əməyi nəticəsində reallaşır.**

Dövlət qulluğu öz gündəlik işində eyni vaxtda sosial məkanın bütün sferalarını - siyasi, hüquqi, iqtisadi, mənəvi-əxlaqi və s. əhatə edən fəaliyyət sahəsidir. Dövlətin həyata keçirmək istədiyi proqramların taleyi, bütünlükdə dövlətin özünün taleyi son nəticədə dövlət qulluğunun, həmin qulluğu icra edən insanların peşəkarlığına, mənəvi-əxlaqi potensialına bağlıdır. Vətəndaş da dövlət qulluqçusunun səviyyəsi və keyfiyyətini birbaşa dövlət orqanının özünün səviyyəsi və keyfiyyəti kimi qəbul edir.

Dünya birliyi dövlət qulluğuna, onun səmərəliliyinin artırılmasına, nüfuzunun yüksəlməsinə daim ciddi maraq göstərir. BMT, onun bir sıra ixtisaslaşmış qurumları, Dünya Bankı, Avropa Birliyinin müvafiq strukturları, Avropa Şurası dövlət qulluğunun modernləşməsi, onun dəyişən sosial şəraitə uyğunlaşması, səmərəliliyinin artması məsələlərini daim diqqət mərkəzində saxlayır. Bütün bu qeyd edilənlərin məntiqi nəticəsidir ki, BMT dövlət qulluğunun əhəmiyyətli bir sosial institut olduğunu vurğulamaq, habelə istirakçı ölkələrdə dövlət qulluğunun yaxşılaşmasına kömək edə biləcək təcrübələri yaymaq məqsədi ilə Baş Assambleyasının 20 dekabr 2005-ci ildə qəbul etdiyi "Dövlət İdarəçiliyi və inkişaf" adlı qətnaməsi ilə iyun ayının 23-nü BMT-nin dövlət qulluğu günü elan etmiş, eyni zamanda, üzv-dövlətlərə həmin gün dövlət qulluğunun ümumi inkişafa verdiyi töhfəni əks etdirən xüsusi tədbirlər keçirmələrini tövsiyə etmişdir. Belə günlərdə BMT xüsusi forumlar təşkil edir və bu forumlarda dövlət qulluğunun aktual problemlərinə dair elmi məruzələr dinlənilir, təcrübə mübadiləsi aparılır.

Prezident İlham Əliyevin 25 may 2006-cı il tarixli sərəncamı ilə "Dövlət qulluqçularının peşə bayramı günü" təsis edildi və elə həmin vaxtdan etibarən hər il 23 iyun bayram kimi qeyd olunur və bu münasibətlə tədbirlər planına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasında dövlət qulluğunun aktual məsələlərinə həsr edilən elmi-praktik konfranslar, yerli icra hakimiyyətlərində xüsusi tədbirlər keçirilir, kütləvi informasiya vasitələri dövlət qulluğu sisteminin mahiyyəti, ictimai inkişafda onun rolu barədə ictimaiyyət məlumatlandırılır. Peşə bayramı ərəfəsində qabaqcıl dövlət qulluqçularının əməylərinin layiqincə qiymətləndirilməsi məqsədi ilə "Əməkdar dövlət qulluqçusu" fəxri adı, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, habelə digər orden və təltiflərlə mükafatlandırılırlar.

Azərbaycanda dövlət qulluqçularının təhsili özünəməxsus təcrübəyə malikdir. Dövlət qulluğunda çalışanların xüsusi hazırlıq keçməsinin təşkilinə ilk cəhd bu il 100 illik yubileyini təntənəli surətdə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur. Lakin Cümhuriyyətin süqutu bu işin davamlı olmasına imkan vermədi. Bir qədər sonra, 1921-ci ilin dekabrında Bakıda Mərkəzi Türk Sovet Partiya Məktəbi fəaliyyətə başlayır. Bu məktəbə Azərbaycan, Gürcüstan, Dağıstan, İran və Hindistandan dinləyici qəbul edilir. Növbəti ilin sonunda isə məktəbin ilk buraxılışı olur və məzunlar qarşısında ozamankı respublika rəhbəri Nəriman Nərimanov çıxış edir. Lakin Sovet İttifaqının yaradılması ilə bu praktika da davamlı ola bilmir. İttifaq dönəmində müxtəlif formalar və adlarla kurs, institut, məktəb adları ilə davam edən kadr hazırlığı yalnız Bakı Ali Partiya Məktəbi təsis ediləndən sonra sabit xarakter alır.

Bu dövrdə müxtəlif profilli məktəb və institutlar mövcud olsa da, kadr hazırlığı işinin nüvəsini Bakı Ali Partiya Məktəbinin fəaliyyəti təşkil edirdi. Cənubi Qafqazda yeganə belə mərkəz olan bu məktəbdə təkcə qonşu respublikalar üçün deyil, Rusiya Federasiyasının, Ukrayna və Belarusun bir neçə vilayəti üçün də kadr hazırlanırdı. Müxtəlif vaxtlarda burada Özbəkistan, Türkmənistan, Dağıstandan da partiya-sovet işində çalışan dinləyicilər təhsil almışlar. Həmin illərdə, xüsusilə də ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi müddətdə ölkəmizin əldə etdiyi böyük nailiyyətlərdə Bakı Ali Partiya Məktəbinin məzunlarının rolu danılmazdır. Azərbaycan KP MK-nın ozamankı birinci katibi Heydər Əliyev məktəbin inkişafına daim qayğı göstərmişdir.

1991-ci ilin iyun ayında hələ İttifaqın dağılması rəsmiləşməmiş keçmiş SSRİ Ali Təhsil Komitəsi sədrinin əmri ilə SSRİ ərazisində fəaliyyət göstərən 14 ali partiya məktəbinin hamısı, o cümlədən Bakı Ali Partiya Məktəbi Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən Bakı Sosial İdarəetmə və Politologiya İnstitutuna çevrildi. Az sonra Sovet İttifaqının süqutu və Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi nəticəsində yaranmış yeni şəraitdə institut müstəqil dövlətimizin maraqlarından çıxış edərək öz ənənələrinə və Avropa təcrübəsinə əsaslanaraq yeni dövlət idarəçiliyi təhsilinin yaradılması istiqamətində müəyyən addımlar atdı. Dövlət qulluqçularının hazırlığının yeni sisteminin əsası 1999-cu il yanvarın 3-də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə qoyuldu. Həmin fərmanla keçmiş Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun bazasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası təsis olundu. Akademiya artıq 20 ildir ki, ulu öndərin imzası ilə təsdiq edilən nizamnaməsində müəyyən olunmuş şərəfli vəzifələrini uğurla yerinə yetirir və respublikanın kadr potensialının inkişafına öz töhfəsini verir.

Mən, 1981-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsinin məzunu olmuş, 1994-cü ildən Yeni Azərbaycan Partiyasının üzvü və 2009-cu ildən isə dövlət qulluqçusuyam.

2010-cu ilin 23 iyununda Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşam.

Öz növbəmdə ölkəmizin bütün Dövlət qulluqçularını peşə bayramı münasibətilə təbrik edirəm.

**Zemfira XƏLƏFOVA,**
**dövlət qulluqçusu.**

# "Karpat" sanatoriyasının təbiəti də möcüzədir, suyu da...



**Truskavets Qərbi Ukraynada, qədim Lvov şəhərinin yaxınlığında, atlas geyimli Karpat dağlarının qoynunda yerləşir. Bir-biri ilə "qucaqlaşan" dünyanın nadir ağacları, sıldırım qayalar, növ-növ gül-çiçəklər, şəlalələr, qıjıltı ilə burula-burula axan dağ çayları, nəğmə oxuyan quşlar bu yerlərin tamaşasına gələn insanlarda xoş ovqat yaradır...**

Truskavets şəhərinin müasir, dünya standartlarına cavab verən, müalicəvi kurortlarından biri də adı dillərdə əzbər olan "Karpat"dır. Bu müalicə ocağının özü də gözəldir, suyu da...

Yaxın günlərdə Bakıdakı Ukrayna Ticarət Evində turizm sektorunun inkişafı ilə bağlı tədbir keçirilirdi. Toplantıda Kiyev, Odessa, Xarkov, Lvov, Truskavets, Sxodnitsa şəhərlərindən gəlmiş turizm rəhbərləri iştirak edirdi. Çıxış edənlər vurğuladı ki, son illər Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində Ukrayna ilə Azərbaycan arasında turizm əlaqələri genişlənmiş, dostluq, qardaşlıq əlaqələri möhkənlənmişdir.

Görüş başa çatdıqdan sonra toplantıda iştirak edən Truskavets şəhərindəki "Karpat" sanotoriyasının baş həkimi, şəhərin deputatı Ruslan Pristay ilə görüşüb söhbət etdik. İlk öncə müsahibimiz Azərbaycanın Cənubi Qafqazda lider ölkə olduğundan söhbət açdı, iqtisadi qüdrətinin artmasını vurğuladı, mavi Xəzərin nəğməli sahillərinin dünyanın ən gözəl məkanına çevrildiyini bildirdi. Qeyd etdi ki, Azərbaycan bu gün ən gözəl bir diyardır. Həmçinin Azərbaycanın idman sahəsindəki uğurları qürurvericidir.

Ukraynalı qonaqla olan şirin söhbətimiz xeyli davam etdi. Ruslan Pristay bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

- Dahi Ukrayna şairi Taras Şevçenko şeirlərində Avropanın ən böyük dövlətlərindən biri olan Ukraynanın hər qarış torpağının barlı-bərəkətli olmasını vəsf etmiş, xüsusilə Korpat dağlarının füsunkarlığına, gözəlliyinə üstünlük vermişdir. Qərbi Ukrayna ərazisində yerləşən Truskavets sanatoriyası Morşen və Sxodnitsa sanatoriyalarının yaxınlığındadır.

"Karpat" sanatoriyası 1993-cü ildən fəaliyyət göstərir. İnsanların müayinə və müalicəsi üçün hər cür şərait yaradılmışdır. Burada yaradılan şərait hamını razı salır.

"Karpat" sanatoriyasına il ərzində dünyanın 48 ölkəsindən insanlar gəlir, il ərzində gələnlərin sayı 15 mini keçir. Bu sağlamlıq ocağındakı Naftusiya, Mariya, Sofiya, Anna, Edvard, Ferdinand və digər müalicəvi sulardan insanlar şəfa tapır.



Buranın təbiəti çox gözəldir. Mədə-bağırsaq, böyrək, ciyər, şəkər və digər xəstəliklərdən əziyyət çəkən insanlar müalicə dövründə şəfa tapır, bir sözlə xəstəliklərə "əlvida" deyir, romantik diyardan xoş təəssüratla ayrılırlar.

Qeyd etmək lazımdır ki, "Karpat" sanatoriyasına Ukrayna, Polşa, Belarus, Moldova, Orta Asiya, Azərbaycandan gələn insanların sayı çoxluq təşkil edir. İl ərzində təqribən 12 minə yaxın insan gəlir. Əlbəttə, bu qürurverici haldır. Onlar burada özlərini yaxşı hiss edir, hər an doğma münasibətlə qarşılaşırlar.

Sanatoriyanın ərazisi təxminən 6 hektardır. İnsanların səmərəli istirahəti üçün hər cür şərait yaradılmışdır. Sanatoriyanın iaşə obyektlərində müalicəyə gələnlərə nümunəvi xidmət göstərilir. Mütəmadi olaraq gəzməli yerlərə avtobuslarla ekskursiyalar təşkil olunur.

Ruslan Pristay Bakıda turizmlə bağlı belə bir möhtəşəm tədbirin təşkilinə görə Ticarət Evinin rəhbəri, iqtisad elmləri doktoru, professor Əlibala Məhərrəmzadəyə qonaqlar adından dərin minnətdarlığını bildirdi.

Truskavets şəhərindəki "Karpat" sanatoriyasında insanlar şəfa tapır. Bu gözəllik diyarına səfər etmək olduqca sərfəlidir. Hamı bu sağlamlıq ocağında özünü gümrah hiss edir, sağlamlığına qovuşur.

**Qədir ASLAN,**
**"Respublika".**

# KİMYƏVİ TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ TƏBLİĞAT

**"Ruzgar" Ekoloji İctimai Birliyi İPEN (Davamlı üzvi çirkləndiricilərin məhv edilməsi üzrə Beynəlxalq Şəbəkə) və "Ekoakord" təşkilatlarının metodik-informasiya dəstəyi ilə polixlorbifenillərin (PXB) ətraf mühitə və insan sağlamlığına təsirinin azaldılması sahəsində təbliğat kampaniyası aparır.**

PXB-lərin dünya sənaye miqyasında istehsalı ilk dəfə olaraq 1929-cu ildən başlayaraq ABŞ-ın "Monsanto" şirkəti tərəfindən həyata keçirilmişdir.

1930-cu ildən indiyədək dünyada 1.7 milyon tondan artıq PXB istehsal olunmuşdur. Keçmiş SSRİ-də PXB-lər 1934-cü ildən sovol və sovtol ticarət markaları adı altında istehsal edilmişdir. 1939-cu ildən SSRİ-də boyalar və laklar üçün plastifikator kimi 180 min ton PXB istifadə olunmuşdur. Bu maddələr kondesatorların izolyasiyasında və hərbi sənaye istehsalında istifadə olunmağa başladı.

Azərbaycanda PXB, PXB-li birləşmələr və PXB-li avadanlıqlar istehsal olunmamışdır. Azərbaycan ərazisində mövcud ola bilən PXB birləşmələri və avdanlıqlar yalnız idxal nəticəsində meydana gəlmişdir. PXB tərkibli birləşmələr və avadanlıqlar üzrə statistik məlumatlar yoxdur. Bu məlumatların ilkin versiyası Azərbaycanda Stokholm Konvensiyası üzrə 1-ci Milli Fəaliyyət Planının tərtibi prosesində aparılan inventarlaşma nəticəsində toplanmışdır.

PXB-lər davamlı üzvi çirkləndiricilərin (DÜÇ) bir qrupu olub ətraf mühit və insanlar üçün ən təhlükəli üzvi birləşmələrdəndir. Bu səbəbdən PXB-lər də dioksinlər kimi reproduktiv funksiyaya ciddi mənfi təsir göstərir. Əhalinin PXB-in təsirinə məruz qalma riskləri tədqiq olunmuş və bu sahədə bir çox nəticələr aşkar olunmuşdur. İnsan orqanizminə təsiri böyrəklərin və digər orqanların zədələnməsinə, nəfəs aldıqda başağrılarına və dəri vasitəsilə sızanaqlar törədə bilməklə xarakterizə olunur. PXB ilə çirklənmiş düyüdən qadınların istifadə etməsi nəticəsində ölü doğulan uşaqlar və uşaqların ölüm hadisəsi artmışdır. Tərkibində yüksək miqdarda PXB olan balıqla qidalanan anaların uşaqları azçəkili olmuşdu. İsveçin Baltikyanı sahillərində balıqçıların (anaların) qanlarında PXB-in miqdarı müqayisə qrupuna nisbətən 30% çox olmuşdur. Qanlarında PXB-in miqdarı çox olan qadınların uşaqları anadangəlmə qüsurlarla doğulur. Epidemioloji tədqiqatların nəticələrinə əsasən PXB-in təsiri ilə dəridə melanomanın, qaraciyərdə xərçəng xəstəliyinin, mədə-bağırsaq traktında (yolunda) şişlərin, digər bədxassəli yeni törəmələrin əmələ gəlməsi arasında korrelyasiya müəyyən edilmişdir. Müayinə əsasən kondensator istehsalı sahəsində çalışan fəhlələrdə aparılmışdır.

1968-ci ildə Yaponiyada təxminən 16 min adam PXB istehsalı zamanı zəhərlənmiş və bir çoxu da həlak olmuşdu. 1970-ci illərdə PXB-lərin yüksək toksikliyinə görə PXB-tərkibli birləşmələrin istehsalı qadağan edilmişdir.

Bundan əlavə, PXB birləşmələri insan orqanizmində mutagen prosesləri yaradır, bu da gələcək nəsillərin sağlamlığına mənfi təsir göstərir, belə ki, kondensatorların istifadəsi qaydalara müvafiq tələblərə uyğun olaraq həyata keçirilməlidir.

Ölkə əhalisinin, xüsusilə də gənclərin ətraf mühitdə baş verən dəyişikliklərin səbəblərini, ekoloji problemlərin həlli yollarını öyrənməsi məqsədilə ekoloji təhsilin, ekoloji maarifləndirmənin xüsusi rolu olduğunu qeyd etmək lazımdır. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanununda qeyd olunduğu kimi, ekoloji təhsil - ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə normaların, xüsusi biliklərin, təcrübənin tədrisi və öyrənilməsi prosesidir. Bu prosesdə dövlət təşkilatlarının, vətəndaş birliklərinin, beynəlxalq təşkilatların ekoloji təbliğat və ekoloji maarifləndirmə istiqamətində fəaliyyəti artıq öz bəhrəsini verməkdədir.

Gəlin gənclərimizin sağlam ətraf mühitdə yaşamaq və ətraf mühitin vəziyyəti barədə informasiya almaq hüququnun pozulmasına imkan verməyək.

**M.MİRZƏ,**
**"Respublika".**

# Dövlət qulluqçularının peşəkarlığını artırmaq məsələləri daim diqqət mərkəzində saxlanılır

**Qədim zamanlardan bu günədək dövlətlərin həmişə diqqət mərkəzində öz idarəçilik aktuallığı ilə seçilib. İstər xırda dövlət olsun, istərsə də imperiyalar öz qüdrət və varlıqlarını qoruyub saxlamaq üçün həmişə yaxşı və ənənəvi idarəçilik modelindən bəhrələnmişlər. İdarəçilik, elə bir sistemdir ki, burada hər şey dəqiqliklə ölçülüb biçilməlidir. İdarəetmənin metodları zəncirvari formada təşkil olunmalıdır ki, sonradan hər hansı xoşagəlməz hadisələr bu sistemi dərindən sarsıtmış olmasın.**

Müasir dövrümüzdə dövlət idarəçiliyinin mühüm və tərkib hissələrindən biri olan icra hakimiyyəti anlayışı dövlət idarəçiliyinin əsas fundamental hissəsidir. Bu da özlüyündə Mərkəzi və yerli icra hakimiyyəti qollarını yaratmış olur. Mərkəzi icra hakimiyyəti orqanları aparat və yerli bölmələri ilə öz funksiyasını müəyyən qanunvericilik çərçivəsində həyata keçirir. Yerli icra hakimiyyəti orqanları isə yerlərdə idarəetməni təşkil edir və ona rəhbərlik edir.

Bu hər iki sadalanan qurumlar icra hakimiyyəti orqanlarının fəaliyyətinin təşkilində və icra hakimiyyəti orqanının vəzifə və səlahiyyətlərinin yerinə yetirilməsində "lokomotiv" rolunu həyata keçirir.

23 İyun ölkəmizdə Dövlət Qulluqçularının peşə bayramı kimi qeyd olunur. Bu bayram Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis edilib. Dövlət xidmətinin demokratik, hüquqi və dünyəvi dövlətin yaradılmasındakı rolu və BMT Baş Assambleyası tərəfindən 23 iyunun Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü elan edilməsi nəticəsində qərar verilir. Azərbaycanda dövlət qulluğu sistemində çalışan məmurlar indi öz bayramlarının on üçüncü ilini qeyd edirlər.

Ölkəmizdə müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişaf etdirilməsində, demokratik dəyərlərə, hüquqi və dünyəviliyə əsaslanan dövlət quruculuğunda ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Müstəqil Azərbaycanın 1995-ci ilin 12 noyabrında qəbul edilmiş Konstitusiyasında da ölkəmizdə dövlət quruluşu və idarəçilik prinsipləri təsbit olunmuşdur. Dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyunun 21-də qəbul edilmiş "Dövlət Qulluğu haqqında" Qanundur.

Bu qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib.

Azərbaycanda müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatları uğurla davam etdirir. Bu islahatlardan məqsəd çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, insan və vətəndaş, hüquq və azadlıqlarının yüksək dövlət təminatına nail olunması, bütövlükdə ölkəmizin beynəlxalq aləmə inteqrasiyası prosesinin sürətləndirilməsindən ibarətdir. Ölkə Prezidenti İlham Əliyevin 2005-ci il 19 yanvar tarixli Fərmanı ilə Aərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır. Bu gün Komissiya Dövlət İmtahan Mərkəzinin müvafiq strukturlarından biridir. Yəni, dövlətlə dövlət qulluqçuları arasında münasibətləri tənzimləyən, dövlət qulluğu sistemindəki kadr potensialının hazırlanması və müvafiq dövlət orqanına yerləşdirilməsi işinin təşkili ilə məşğuldur. Bundan əlavə, Mərkəzin əsas məqsədi dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların təbliğinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, dövlət qulluqçularının ixtisas hazırlığının artırılması və qanunvericilikdə nəzərdə tutulan siyasətin həyata keçirilməsini təmin etməkdir. Ölkədə bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik vətəndaş cəmiyyətinin tələblərinə cavab verən dövlət idarəçiliyi sisteminin qurulmasında da mühüm rol oynayır.

Dövlət Qulluğu sahəsində çalışan müxtəlif nazirlik, komitə və digər qurumlarda 29 min nəfər dövlət qulluqçusu çalışır. 10 mindən çox şəxs isə dövlət qulluqçusu kimi təqaüd alır.

Respublikada dövlət qulluqçularının peşəkarlığını artırmaq məsələləri daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət qulluqçularının hazırlanmasında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında peşə səviyyəsinin yüksəldilməsində, bu məqsədlə açılan ixtisasartırma kurslarında təhsilin təşkil edilməsində, dövlət qulluğu məsələlərinə dair elmi-tədqiqat işlərinin aparılmasında, dövlət qulluğunun nəzəri və praktiki məsələlərinin öyrənilib müvafiq təkliflər verilməsində rolu böyükdür. Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən qısamüddətli kurslarda hər il yüzlərlə



dövlət qulluqçusu idarəetmənin müasir tələblərini, bu sahədə olan yenilikləri həvəslə öyrənir, çalışdıqları idarə və müəssisələrin işində tətbiq edirlər. Düzdür, bu sahədə də müəyyən çətinliklər vardır. Problemlərin öyrənilməsi və həlli istiqamətində də ölkə başçısı İlham Əliyev tərəfindən dövlət orqanları rəhbərləri qarşısına mühüm vəzifələr qoyulmuşdur.

Dövlət Qulluğu sistemində çalışanların maddi və sosial rifahının yaxşılaşdırılması istiqamətində xeyli işlər görülür. Dövlət qulluqçuları haqqında İlham Əliyev demişdir: "Hər bir dövlət qulluqçusu bilməlidir ki, o, ilk növbədə dövlətin güzgüsüdür. Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluqçusu olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır". Beləliklə, bir dövlət başçısının qarşımıza qoyduğu vəzifəni rəhbər tutub, bundan sonra da çalışmalıyıq ki, xalqla dövlət arasında möhkəm körpü yaransın və müstəqil Azərbaycan inkişaf etsin, çiçəklənsin və yeni-yeni nailiyyətlər əldə edilsin.

**Mürvət İBRAHİMOV,**
**Nizami Rayon İcra**
**Hakimiyyətinin**
**məsul işçisi.**

# İMTAHAN SESSİYASINDA OBYEKTİVLİK VƏ ŞƏFFAFLIQ

**Gəncə Dövlət Universitetində 2018/2019-cu tədris ilinin yaz imtahan sessiyası başlanıb. Bununla əlaqədar universitetin rektoru, professor Yusif Yusibovun rəhbərliyi ilə yığıncaq keçirilib, əvvəlcədən hazırlıq işləri görülüb və müvafiq əmr imzalanıb. Əmrə əsasən nəzarət komissiyası yaradılıb, nəzarətçi qrupların bölgüsü aparılıb. İmtahanların şəffaf və obyektiv keçirilməsi üçün universitetdə lazımi şərait yaradılıb. Həmçinin 2018-2019-cu tədris ilinin yaz semestri imtahanlarında tələbələr üçün bir neçə güzəşt tətbiq edilib. Belə ki, bu semestrdən etibarən imtahanların sualları tələbələrə test formasında, cavabları ilə birgə verilib.**

İyun ayının 3-dən başlanan imtahan sessiyasının gedişinə nəzarət etmək, tələbə və valideynlərin, həmçinin ictimaiyyət nümayəndələrinin müraciətlərinin qəbulu və araşdırılması məqsədilə Qərargah yaradılıb. Qəragahın nəzdində fəaliyyət göstərən "Qaynar xətt"ə daxil olan müraciətlər dərhal araşdırılır. Qiymətləndirmədən narazı qalan tələbələrin Qərargaha müraciəti üçün şərait təmin edilib. Valideynlərə övladlarının imtahanlarında iştirak etmək üçün şərait yaradılıb. Əvvəlcədən həyata keçirilən tədbirlərin və görülən işlərin nəticəsidir ki, indiyədək heç bir təlimat pozuntusu aşkar olunmayıb. İmtahanların gedişinə nəzarət etmək üçün komissiya üzvləri mütəmadi olaraq imtahan auditoriyalarına gedir, tələbələri maraqlandıran sualları cavab-



landırır, onların qarşılaşdığı hər hansı problemin olub-olmaması ilə maraqlanır.

Yaz semestrində 5000-ə yaxın tələbə iştirak edir. Tələbələr təhsilin hər iki səviyyəsi üzrə 95 ixtisas üzrə imtahan verirlər. Semestr ərzində tələbələrin 5-6 imtahan verməsi nəzərdə tutulur. İmtahan başa çatan gün onun nəticələri açıqlanır. Həmişə olduğu kimi tələbələrin biliyinin obyektiv qiymətləndirilməsi və şəffaflıq təmin olunur. Tələbələr yaradılan bu münbit şəraitə görə universitetin rektoru professor Yusif Yusibova minnətdarlıqlarını bildirirlər. Sessiya iyulun 5-dək davam edəcək.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Milli üzüm genofondunun qorunub saxlanılması alimlərimizin əsas vəzifəsidir

**Bitki genofondunda öz qədimliyi, formamüxtəlifliyi, habelə dəyəri ilə fərqlənən üzümçülük sahəsi Azərbaycan xalqının iqtisadiyyatında həmişə mühüm rol oynamışdır. Bir sözlə, üzümçülük və şərabçılığın qədim məskənlərindən olan ölkəmiz bütün tarixi keşməkeşlərin sınağından keçərək bu sahənin inkişafına xüsusi önəm vermiş və onu qoruyub saxlamışdır.**

Tarixi məlumatlardan və ampeloqrafik tədqiqatlardan məlum olmuşdur ki, Azərbaycanda vaxtilə 500-ə yaxın yerli üzüm sortu əkilib-becərilmişdir. Xüsusən qeyd etməliyik ki, dünyanın ən yüksək məhsuldar və keyfiyyətli, salxım və gilələrinin gözəl görkəmi ilə seçilən, ən qiymətli süfrə, texniki və kişmiş üzüm sortları məhz ölkəmizdə bitir. Onlardan məhsuldarlığı, öz dadı, keyfiyyəti, rəngi, istifadə istiqaməti ilə fərqlənən Ağ və Qara şanılar, Təbrizi, Bayanşirə, Mədrəsə, Ağ Xəlili, Sarıgilə, Şirvanşahı, Həməşərə, Xindoqnı, Hüseyni, Nəqşəbi, Misqalı, Şamaxı mərəndisi, Qara və Ağ Aldərələr, Ağ kişmişi, Ağ oval kişmişi, Çəhrayı kişmişi və s. çoxsaylı digər sortları göstərə bilərik. Ancaq bunların da içərisində elələri var ki, onlar dünyada da nadir sortlardır. Məsələn, yerli Şirvanşahı sortunun gilələrində tam yetişmə zamanı 100 santimetrdə 27-33 qram şəkərlilik toplanır. Bayanşirə sortu isə dünyada ən yüksək məhsuldar sortlardan biri kimi hesab olunur. Formasından asılı olaraq bir tənəyin məhsulu orta hesabla 12-20 kq-a çatır ki, bu da hektardan 35-45 ton üzüm məhsulu deməkdir.

Xalqımızın yaratdığı və yetişdirdiyi üzüm sortlarını bir çox əlamətlərinə görə fərqləndirsək, aşağıdakı kimi təsnifatlaşdırmaq olar: rənginə görə Ağ şanı, Qara şanı, Ala şanı, Sarıgilə, Qırmızı səabi, Ağ səabi, Qara üzüm, Qızıl üzüm, Bənövşəyi üzüm, Qara sərmə, Çil üzüm, Çəhrayı kişmiş və s. keyfiyyətinə, dadına, ətrinə, saxlanma qabiliyyətinə görə Gülabi, Şəkəri, Təmbeyi, Kərimqəndi, Qara qənd üzümü və s. Salxım və giləsinin görkəminə, böyüklüyünə görə Quşürəyi, Bababeli, Misqalı, Tülküquyruğu, Dəvəgözü, Tulagözü, Keçiməməsi, İnəkəmcəyi, Gəlinbarmağı, Xatınbarmağı, Gözəl üzüm, İri salxım, Sıxsalxım, Düyümgilə, Batmanı və s., yetişgənliyinə görə Ağa görməz, Novrast, Kal üzüm və s., gilə qabığının qalınlığına və lətinin bərkliyinə görə Xart-xart, Daş üzüm, Qalınqabıq, Su üzümü, Daş kişmiş, Daş mərəndi və s., toxumun, gilənin iriliyinə və salxımın görkəminə görə Sapdadurmaz, Haçabaş, Misqalı və s. Müalicəvi əhəmiyyəti və məişətdə istifadəsinə görə Şəfeyi, Sirkeyi, Şərabı, Kişmiş, Mövücü, Çərəz və s., geniş yayılma və yetişdirilmə yerinə görə Təbrizi, Beyləqani, Bayanşirə, Mədrəsə, Şirvanşahı, Şabranı, Dərbəndi, Xalac üzümü, Aldərə, Xəzəri və s. adlandırmışdır. Bir sıra sortlar isə onları yetişdirən, yaxud yaradıcısının adları ilə Xəlili, Əsgəri, Hüseyni, Səkinə xanım, Cəlali, Muxtarı, Sərdari, Hacı Abbas, Əziz, Talibi, Yaqubi, Zeynəbi və s. tarixdə qalmışdır.

Azərbaycan xalqı üzümçülük və şərabçılığın inkişafı ilə bağlı qədim əkinçilik və istehsal mədəniyyətinə malikdir. Xalqımız tarixən müxtəlif məişət və sənaye məhsulları (mürəbbə, riçal, doşab, sirkə, abqora, sucuq, kişmiş, mövüc, turşaşirin, şirə, şərbət, şərablar, spirt və s.) əldə etmək, habelə dekorativ (bəzək) məqsədlə üzüm sahələrini zaman-zaman genişləndirməyə nail olmuşlar. Yəni üzümçülük və şərabçılıq ölkəmizdə elmi əsaslarla inkişaf etdirilərək formamüxtəlifliyi və istifadə istiqamətləri (süfrə, texniki, universal, kişmiş) ilə seçilən yüzlərlə qiymətli aborigen üzüm sortları yetişdirərək bu günümüzəcən gətirib çıxarmışlar.

Təsadüfi deyildir ki, vaxtilə respublikamızda becərilən üzümlüklərin ümumi sahəsinin 55-60%-ə qədərini yerli süfrə və texniki üzüm Mədrəsə, Bayanşirə, Həməşərə, Xindoqnı, Mələyi, Şirvanşahı, Misqalı, Arna-qrna, Ağ Aldərə, Təbrizi, Ağ şanı, Qara şanı, Sarığilə, Pişraz, Ağ Xəlili, Şəfeyi, Bəndi, Əsgəri, Hüseyni, Mərəndi, Qızıl üzüm, Rişbaba və s. təşkil etmişdir. Bu sortların məhsuldarlıq və yüksək keyfiyyət göstəriciləri bu gün də öz əhəmiyyətini saxlayır. Vaxtilə bu sortların məhsuldarlığı sayəsində respublikamızda 2 milyon tona yaxın üzüm istehsal olunmuşdur. Yerli üzüm sortlarını xalqımız həmişə öz həyətyanı təsərrüfatlarında becərərək bütün dövrlərdə qoruyub saxlamış və onların mədəni inkişafı ilə məşğul olmuşlar.

Yerli üzüm sortlarının sort tərkibinin və məhsulunun biokimyəvi zənginliyinə malik olması ölkədə müxtəlif növ yüksəkmarkalı şərabların istehsalına imkan verir. Yaxın keçmişdə Azərbaycanın şərab zavodlarında əksərən yerli üzüm sortlarının məhsullarından 60 markadan çox, o cümlədən 17 növ turş, 20 növ portveyn tipli tünd desert, o cümlədən kaqor tipli şərabları və konyaklar (Göygöl-3,4,5 ulduzlu, Bakı, Yubileyni) istehsal edilirdi.

Lakin çox təəssüf ki, 80-ci illərin axırlarında məlum alkoqolizmlə bağlı bədnəm bir qərardan sonra 90-cı illərdə respublikada mülkiyyətə münasibətin dəyişməsi və s. səbəblərdən üzümçülüyə diqqət nəinki azaldı, hətta on minlərlə hektar üzümülklər, o cümlədən orada becərilən nadir üzüm sortlarının əksəriyyəti itirildi. Həmin dövdə üzümçülük və Şərabçılıq ETİ nun nəzdində fəaliyyət göstərən, 250-dən çox üzüm genofomnduna mailik Gəncə ÜŞTS-da və Abşeronda ampeloqrafik kolleksiya bağları da baxımsızlıq ucbatından məhv oldu və orada becərilən üzüm sortlarının əksəriyyəti faktiki olaraq itirildi. Ancaq yaxşı ki, yerli əhali bu üzüm sortlarının dəyərini bildiyindən kolleksiya dağılarkən qiymətli üzüm sortlarının bir çoxunu öz həyətyanı sahələrinə köçürüb saxladılar.

Digər tərəfdən isə bədxah qonşularımız olan ermənilərin məkirli hərəkətləri nəticəsində respublikamızın bir çox qiymətli üzüm sortlarının adları dəyişdirilərək mənimsənilir və yanlış adlar altında nəşr etdirilərək, erməni sortları kimi qələmə alınır.

Bununla belə qeyd edilməlidir ki, bu gün üzümçülük fermer təsərrüfatı yaradan sahibkarların yerli üzüm sortlarına böyük marağı olsa da, onlar fillokseraya davamlı calaq olunmuş əkin materialının əldə edilməsində çətinlik çəkirlər. Bu isə yerli sortların genofondunun məhvinə yönəlmiş ən təhlükəli amillərdən biridir. Gətirilmə üzüm sortlarının sınaqdan keçirilmədən kor-koranə fermer və şəxsi təsərrüfatlarda əkilməsi, üzüm sortlarının biologiyası becərildiyi bölgənin torpaq-iqlim şəraitinə uyğun gəlmədiyinə və düzgün seçilmədiyinə görə gözlənilən səmərəni vermir. Odur ki, üzüm bitkisinin sort tərkibinin müxtəlifliyi və onun biologiyasının xüsusiyyətləri, yerli aqroiqlim zonası şəraitinə uyğunluğu hökmən nəzərə alınmalıdır.

Qeyd edilməlidir ki, 29 yanvar 2002-ci ildə təsdiq edilmiş "Üzümçülük və Şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinin 1-ci bəndində göstərildiyi kimi, xəstəliklərə və zərərvericilərə davamlı calaqaltı və calaqüstü əkin materialları müvafiq elmi-tədqiqat müəssisələrində və ya müqavilə şərtləri ilə elmi-tədqiqat müəssisələrinin nəzarəti altında ixtisaslaşdırılmış tingçilik təsərrüfatlarında istehsal olunmalıdır. "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nda "Yerli və xarici texniki üzüm sortlarının artırılması üçün üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun yüksək məhsuldar tinglik təsərrüfatlarının bərpası" nəzərdə tutulur.

Bu məsələ aidiyyəti qurumlar tərəfindən həyata keçirilərsə, yuxarıda qeyd edilən problemlər birdəfəlik həll edilmiş olardı.

Bunu nəzərə alaraq ÜŞETİ tərəfindən respublikada fillokseraya davamlı üzüm tinginin istehsalı ilə bağlı *"Fillokserayadavamlı calaq-üzüm əkin materialı istehsal edən calaq emalatxanasının yaradılması"* məqsədilə institut tərəfindən layihə hazırlanaraq müvafiq dövlət qurumlarına təqdim edilmişdir.

Güman edirik ki, respublikada fillokserayadavamlı calaq ting materialı istehsalı ilə məşğul olan müvafiq müəssisə yaradılarsa, tələbat yerli istehsal hesabına ödənilərək, bu sahədə xaricdən asılılıq da aradan qaldırılar. Yerli üzüm tingləri nisbətən ucuz başa gəlir, yerli şəraitə yaxşı adaptasiya olunur, nəticədə fermer və istehsalçıların iqtisadi maraqlarına uyğun gəlir. Həmçinin, respublikaya ilbeil xarici mənşəli tinglərin gətirilməsi ilə yerli sortların sıxışdırılması və milli valyutanın xaricə axıdılması ləğv edilə bilər, o cümlədən milli brendlərin istehsalı genişlənər, şərabçılıq üzrə ixrac potensialı yüksələr. Digər tərəfdən, çox vaxt virus xəstəliklərinin daşıyıcısı olan xarici əkin materialı yerli sortların həmin xəstəliklərə yoluxması da aradan qalxar.

Qeyd edilməlidir ki, bitki genetik ehtiyatlarının etibarlı qorunması və səmərəli istifadəsi hər bir ölkədə milli problem olub, bu məsələlərin reallaşdırılması yalnız milli proqramların həyata keçirilməsi əsasında mümkündür. Bu problemin qlobal xarakterli olmasını nəzərə alaraq bioloji müxtəlifliyin qorunması sahəsində beynəlxalq əməkdaşlığı genişləndirmək məqsədilə Azərbaycan Respublikası 2000-ci ildə BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasına qoşulmuşdur.

Artıq öz rəngarəngliyi, zənginliyi ilə seçilən, üzüm bitkinin ən qədim yayılma ocaqlarından biri olan vətənimiz üçün Milli Ampeloqrafik Kolleksiya bağının yaradılması ümummilli və tarixi bir məsələ olduğundan respublikada mövcud olan kolleksiyalar yenidən müasir tələblər səviyyəsində qurulmalı, daim zənginləşdirilməli, maddi-texniki bazaları yaxşılaşdırılmalı və onlar Milli Kolleksiyalara çevrilməlidir. Əminik ki, ampeloqrafik kolleksiya bağlarının müasir tələblər səviyyəsində qurulması aborigen üzüm genofondunun etibarlı şəkildə qorunmasını və səmərəli istifadəsini təmin edəcək, üzümçülüyün inkişafına əhəmiyyətli töhvələr verəcəkdir. Düşünürük ki, bu məsələlərin həlli respublikanın müxtəlif bölgələrinin torpaq-iqlim şəraitinə uyğun, müasir bazar rəqabəti ilə uzlaşan qiymətli üzüm sortlarının müəyyən edilib toplanması, yenilərinin yaradılması və gələcəkdə onlardan əkin materialı üçün tədarük edilməsi üçün vacib şərtlərdir. Yəni bu məsələlər ölkəmiz üçün təxirəsalınmaz tədbir tələb edir. Həm də ona görə ki, 2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nda *"Azərbaycan respublikası üzrə ənənəvi üzüm bitkisi genofondunun toplanması, uçotu, öyrənilməsi, qorunub saxlanılması və səmərəli istifadəsi məqsədi ilə müasir kolleksiya bağının yaradılması"* və 2018-2025-ci illərdə şərabçılığın inkişafına dair Dövlət Proqramlarında və "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikasının qanununun *"Mədəni bitkilərin genetik ehtiyatlarının Milli kolleksiyaları"* xalq təssərüfatı əhəmiyyətli, qiymətli və nadir bitkilərin qorunub saxlanılması məqsədilə kolleksiyaların yaradılması vəzifə olaraq qarşıya qoyulmuşdur.



Keçmişdə olduğu kimi, hazırda da bitkilərin genetik ehtiyatlarını və biomüxtəlifliyini öyrənən beynəlxalq təşkilatlar (Bioversity İnternational, COST və s.), aqrobiomüxtəlifliyi təşkil edən bitkilərin yaranma, formalaşma mərkəzlərində onların yabanı əcdadlarının öyrənilməsinə və qorunmasına (in-situ və ex-situ şəraitində), qiymətli genotiplərin geniş istehsalata və biotexnologiya tədqiqatlarına cəlb olunmasına xüsusi diqqət yetirirlər. Dünya ampeloqrafları üzümçülüyün inkişaf etdiyi, o cümlədən üzümün vətəni sayılan ölkələrdə yeni, müasir maddi-texniki bazaya malik və maksimum miqdarda üzüm genotiplərinə malik ampeloqrafik kolleksiyaların yaradılmasını zəruri hesab edirlər.

Hələ 1780-ci ildə Fransanın Marsel şəhərində rahib Roze ampeloqrafik kolleksiya bağının salınmasını təklif etmiş və onun planını işləyib hazırlamışdır. Roze kolleksiya üzüm bağının salınmasına nail ola bilməsə də, bu ideya bu sahənin inkişafına böyük təkan verdi. İlk kolleksiya isə 1795-ci ildə Lüksemburqda, 1824-cü idə Maqaraçda , sonralarda isə artıq ABŞ, Kanada, Fransa, İspaniya, Almaniya, İtaliya, Bolqarıstan, Macarıstan, Rusiya, Türkiyə, Hindistan və s. ölkələrdə də uzun müddətdir ki, böyük kolleksiya bağları fəaliyyət göstərir.

Respublikamızda isə üzümün kolleksiya bağlarının elmi əsaslarla yaradılması istiqamətindəki işlərə 30-cı illərdə başlanmışdır. Belə ki, 1930-cu ildə Respublikada ilk dəfə olaraq üzümün sort tərkibinin öyrənilməsinə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun üzümçülük kafedrasının mütəxəssisləri məşğul olmağa başladılar. 1933-cü ildə isə Gəncə Üzümçülük və Şərabçılıq Təcrübə Stansiyasında 250-yə qədər üzüm genotipini özündə cəmləşdirən kolleksiya bağı yaradıldı.

Məlum olduğu kimi, 90-cı illərin əvvəllərindən üzümçülüyə diqqətin zəifləməsi nəticəsində üzümüçülük və Şərabçılıq ET İnstitutunun nəzdində fəaliyyət göstərən "ampeloqrafik kolleksiya bağları" da baxımsızlıq ucundan yararsız vəziyyətə düşdü, burada becərilən üzüm sortları itmək təhlükəsi ilə üzüüzə qaldı, demək olar ki, əksər kolleksiyalar məhv oldu və ya itirildi. Vəziyyəti nəzərə alaraq 1995-cü ildə Üzümçülük və Şərabçılıq ET institutunun alimlərinin səyi nəticəsində respublikamızın üzüm genofondunun qorunması və səmərəli istifadəsi işləri bir vəzifə kimi institut qarşısında qoyulmuşdur. İnstitut əməkdaşları (M.Amanov, İ.Dautov, Ç.Sadıxov, A.Şükürov, V.Səlimov, Ə.Zari, M.Əliyeva, X.Abbasova, A.Nəcəfova, H.Nürəddinova, X.Məmmədova, A.Hüseynova, Q.Allahverdiyev və başqaları) tərəfindən üzüm genofondunun toplanması, qiymətləndirilməsi işləri ardıcıl həyata keçirilərək müxtəlif bölgələrə ekspedisiyalar təşkil edilir və üzüm genofondunun aşkar-edilib toplanması, tingliyin salınması həyata keçirilirdi. Nəhayət, əldə olunan genefond materialları əsasında 2002-2003-cü illərdə İnstitutun bazasında Abşeron ərazisində 20 ha sahədə yeni "Ampeloqrafik kolleksiya bağı" salındı. Hazırda kolleksiya üzüm bağında 350-dən çox yerli, introduksiya olunmuş, seleksiya sorları və yabanı üzüm formaları və Amerika calaqaltıları əkilib-becərilir. Ancaq etiraf etmək lazımdır ki, ÜŞETİ-nin Abşeron ampeloqrafik kolleksiya bağındakı sort və formaların miqdarı dünyanın müxtəlif ölkələrində mövcud olan kolleksiya bağındakı nümunələrin sayından dəfələrlə azdır, kolleksiya bağının maddi-texniki bazası aşağı səviyədə olduğu üçün genotiplərin itirilmə təhlükəsi yaranır.

Müsbət haldır ki, bu gün Azərbaycan ərazisində üzüm yetişdirilməyən həyətyanı sahə, demək olar ki, yox dərəcəsindədir. Yaxşı ki, bu qiymətli yerli üzüm sortları hələ də həyətyanı təsərrüfatlarında, köhnə üzüm bağlarında, xiyabanlarda qorunub saxlanılır və yetişdirlir. Ancaq çox qədim tarixə malik, bu, yerli üzüm sortlarının davamlı və etibarlı qorunması üçün kifayət deyil. Belə ki, bu üzüm sortlarının əksəriyyəti elmə məlum olsa da, çox hissəsi hələ də indiyə qədər aşkar olunaraq elmi baxımdan tam öyrənilməmişdir. Ona görə də yerli üzüm genofondunun aşkar olunması, toplanması, kolleksiyaya daxil edilməsi, kolleksiyaların zənginləşdirilməsi işləri prioritet məsələ kimi qarşıda durur.

Məlum olduğu kimi, bioloji müxtəlifliyin önəmli tərkib hissəsi olan bitki genetik ehtiyatları, o cümlədən üzüm genofondu, təkcə bu günün tələbatlarının ödənilməsinə xidmət etmir. Bir sıra növ, sort və formalar gələcəkdə seleksiya, biotexnologiya və gen mühəndisliyi baxımından mühüm əhəmiyyət kəsb edən genlərin daşıyıcıları ola bilərlər. Bütün bunları nəzərə alaraq genefondda mövcud olan hər bir üzüm genotipi aşkar edilib toplanmalı, respublikada mövcud olan kolleksiyalar müasir tələblər səviyyəsində yenidən qurulmalı, daim zənginləşdirilməli, maddi-texniki bazaları yaxşılaşdırılmalı və onlar Milli Kolleksiyalara çevrilməlidir.

Son illərdə alimlərimiz tərəfindən respublikanın qədim üzümçülük bölgələrinə təşkil edilən ekspedisiyalar və axtarışlar nəticəsində indiyə qədər elmə məlum olmayan 70-ə yaxın nadir üzüm sortu (İkicinsli ağ şanı, Əlvan üzüm, Qaragöz, Büllur üzüm, İrisalxım, Kəhraba, Xan üzüm, Xurmayi, Hacı Abbas, Sürməyi, Mərəndil, Nardaran Dərbəndisi, Gavangir, Qırmızı səabi, Dənəvər üzüm, Gəncə keçiməməsi, Düyümgilə, Gözəl üzüm, Yalançı gülabı, Qara hüseyni, Ağagörməz, Qara Ikeni, , Tezyetişən qara kişmişi, Qalınqabıq, Buzovna xatınısı və s.) aşkar olunaraq kolleksiyaya daxil edilmişdir. Həmin sortlardan 45-nin ilk dəfə olaraq ampeloqrafik xüsusiyyətləri öyrənilmiş, beynəlxalq OİV ampelodeskriptorları (66 əlamət üzrə) əsasında təsvirləri həyata keçirilmiş, onların irsi xüsusiyyətlərinin müxtəlifliyi müasir üsullarla (BBCH fenokoldlar, SSR və fenotipik markerlər və s.) qiymətləndirilmiş, məlumat bazaları yaradılmışdır.

İnstitutun təcrübə təsərrüfatlarında və ampeloqrafik kolleksiya bağında əkilib-becərilən və müxtəlif səbəblərdən irsi xüsusiyyətləri pisləşmiş üzüm genotipləri yaxşılaşdırılma proqramına cəlb olunaraq, onlardan ən keyfiyyətli, biotik və abiotik amillərə davamlılıqları ilə seçilən 90-a yaxın klon forma (Ağ şanı klon forması, Qara şanı klon forması, Mədrəsə klon forması, Şamaxı mərəndisi klon formaslı və s.) üzərində tədqiqat aparılır. Seçilən formalar artırılmış və əkin materialı təsərrüfatlara tövsiyə olunmuşdur.

Hər il institutun kolleksiya bağındakı bir çox üzüm sortları öz qiymətli xüsusiyyətləri ilə seçilərək, elmi cəhətdən qiymətləndirilir, təsərrüfatlara və seleksiya işlərində istifadə üçün tövsiyə olunur. Aparılan tədqiqatlar nəticəsində bir neçə yerli və introdukisya olunmuş üzüm sortunun o cümlədən yerli- Təbrizi, Hüseyni, Zeynəbi, Çəhrayı kişmiş, Qırmızı hüseyni və s. və introduksiya olunmuş - Moldova, İtaliya muskatı, Soqdiana kişmişi, Parkent, Çəhrayı tayfı, üzümlüklərin kraliçası, Doyna, Sultanina, Danuta, Sentenial sidlis, Attika, Superior və s. Abşeron ekoloji şəraitində ampeloqrafik və fitosanitar xüsusiyyətləri öyrənilmiş və perspektivli olduqları müəyyən edilmişdir. Həmin sortların müsbət fenoloji, yüksək inkişaf, davamlılıq, kəmiyyət və keyfiyyət göstəriciləri nəzərə alınaraq fermer təsərrüfatlarında geniş sahələrdə əkilib-becərilməsi məqsədəuyğun hesab edilmişdir.

İnstitutda hibridləşdirmə üsulundan istifadə etməklə yeni süfrə və texniki istiqamətli üzüm sortlarının və hibrid formalarının yaradılması işləri ilə əlaqadar aparılan tədqiqatlar nəticəsində 40-dan çox müxtəlif istiqamətli üzüm hibridləri yaradılmışdır. Onlardan 5 sort - Azəri, Göy-göl, Bəhrəli, Kəpəz, Şamaxı hədiyyəsi KTN-nin Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti (BSQTNX) tərəfindən dövlət reysterinə daxil edilmiş (rayonlaşdırılmış), 6 yeni sort - İlhmi, Şirəli, Gəncəvi, Qarabulağı, Nüvədi novrastı və Emin BSQTNX-də sınağa təqdim olunmuşdur. Daha 12 yeni hibrid formasının seleksiyası və qiymətləndirilməsi başa çatdırılmış və sınağa təqdim olunmaq üçün hazırdır.

Hazırda alimlərimiz ölkəyə yeni gətirilmiş bir çox üzüm sortlarının, o cümlədən, Prima, Red qlob, Ora, Parkent, Attika, Autumun royal, Danuta, Sentenial sidlis, Sultanina, Superior, Aleatiko, Alikant buşe, Karignan, Qara qrenaj, Marselan, Marsanne, Montepulçiano, Pino naur, Petit verdo, Roussanne, və s. onlarla belə sortların aqrobiloji və adaptasiya xüsusiyyətlərinin və becərilmə texnologiyasının öyrənilməsi istiqamətində tədqiqat işləri həyata keçirilir. Qeyd edilən, xarici üzüm sortlarından əkin materialı tədarük olunaraq institutun kolleksiya bağlarına daxil edilmişdir. Bu sortlar Azərbaycan şəraitində yeni olduğundan fermerlər onun becərilmə texnologiyası və mühafizəsi sahəsində çətinliklər çəkirlər və elmi əsaslandırılmış tövsiyələrə ehtiyac duyurlar. Ona görə də bu sortların becərilmə texnologiyası (formaverilmə, quru və yaşıl budama, yük normaları, gübrələrə tələbatları, kimyəvi preparatlara münasibəti, xəstəlik və zərərvericilərə həssaslıqları və s. xüsusiyyətləri elmi əsaslarla öyrənilərək fermerlərə tövsiyə olunur.

Yabanı üzüm bitkisinin respublikada yayılma arealının dəqiqləşdirilməsi və ampeloqrafik baxımdan öyrənilməsi alimlərimizin tədqiqatlarında prioritet təşkil edir. Elmi araşdırmalarla müəyyən edimişdir ki, Azərbaycanın müxtəlif bölgələrində yabanı üzüm bitkisi çox qədimdən məlum olduğu kimi, indi də geniş yayılmışdır.

İnstitut əməkdaşları tərəfindən 2007-ci ildən başlayaraq Qəbələ, Şəki, Lənkəran, Cəlilabad, Füzuli, Quba, Xaçmaz rayonlarının ərazilərində axtarışlar aparılmışdır. Aparılan tədqiqat işlərinin nəticəsində məlum oldu ki, respublika ərazisində yabanı üzümün müxtəlif populyasiyaları əsasən iki formasiyada - tuqay və tipik enliyarpaq meşələrdə yayılmışdır. Aşkar olunmuş formalardan artırılma və tədqiqat məqsədilə cubuq və toxumlar tədarük olunaraq götürülmüşdür.

İnstitutda yabanı üzümün oidima davamlı forması ilə müxtəlif davamlılığa, kəmiyyət və keyfiyyət göstəricilərinə malik olan üzüm sortlarının hibridləşdirilməsi həyata keçirilmiş və 10 kombinasiya üzrə yüzlərlə hibrid toxmacarlar əldə olunmuş və 27 perspektiv hibrid forma seçilmişdir.

ÜŞETİ-u AMEA-nın Genetik Ehtiyatlar İnstitutu ilə birgə üzüm genofondunun toplanması, tədqiqi, müxtəlif müasir üsullarla qiymətləndirilməsi, tingçilik və s. sahələrdə əməkdaşlıq edilir. İnstitutumuz, həmçinin AMEA-nın Molekulyar Biologiya və Biotexnologiya İnstitutu ilə birilikdə Azərbaycan Prezidenti yanında Elmin İnkişaf Fondunun dəstəyilə "Azərbaycanda üzüm bitkisinin virus və fitoplazma xəstəliklərinin molekulyar tədqiqi" mövzusunda birgə layihə həyata keçirərək (2015-ci il) mühüm nəticələr əldə edilmişdir.

Üzüm genofondunun qorunub saxlanılmasında və müasir üsullsrla qiymətləndirilməsində Biz həm də beynəlxalq əməkdaşlıq çərçivəsində əlaqalərə üstünülük veririk. Belə ki, 2003-2015-ci illərdə Beynəlxalq Biomüxtəliflik (Bioversity İnternational) və Elm və Texnika üzrə Avropa Əməkdaşlığı (COST) təşkilatları ilə əlaqələr çərçivəsində Azərbaycanın 398 yerli ənənəvi üzüm sortu Vitis-Beynəlxalq Sort Katoloquna (VİVC) daxil edilmiş, 33 yabanı üzüm nümunəsinin və 42 yerli ənənəvi üzüm sortunun isə müxtəlif mənşəli (Qafqaz və Qərbi Avropa ölkələri) üzüm sortları ilə müqayisəli molekulyar-genetik tədqiqi ilə ölkəmizin üzüm sortlarının daha geniş genetik müxtəlifliyə malik olduğu və genetik mənşəcə ayrıca böyük bir qrup (94%) təşkil etdiyi üzə çıxarılmışdır. Milan Universitetinə göndərilmiş həmin 42 yerli üzüm sortu və 4 yabanı üzüm forması universitetin "özək kolleksiyasına"("Core collection") daxil edilmişdir. Tədqiqatlar zamanı öyrənilən 42 yerli üzüm sortunun sinonimlərinin aşkar edilməməsi, onların əsas diaqnostik morfoloji və ampelodeskriptor əlamətlərə görə düzgün və identik olması bir daha sübut edilmişdir. Yerli sortların genom quruluşu müəyyən edilərək, bədnam qonşularımız tərəfindən irəli sürülən iddialarının qarşısı alınmış, morfoloji əlamətlərinin müasir beynəlxalq deskriptorlara əsasən rəqəmsal şəkildə VİVC (Vitis-İnternational Variety Catalogue) məlumat bazasına yerləşdirilməsi onların mənimsənilməsinin qarşısını almaqla, informasiyanın operativliyini və əlçatanlığını təmin edəcək və seleksiya işlərinin səmərəliliyini yüksəldəcəkdir.

COST-un dəstəyi ilə Almaniyada nəşr edilən "Xəzər və Qara dəniz ətrafı ölkələrin ampeloqrafiyası"nda dünyanın 6 ölkəsi ilə yanaşı, Azərbaycanın 54 üzüm sortunun ampeloqrafik təsviri OIV, Bioversity İnternational təşkilatlarının metodikası və protokolları əsasında verilmişdir. Bu Azərbaycanın unikal üzüm sortlarını dünyaya bir daha tanıtmış, sortlarımıza bədnam qonşularımızın məkrli iddialarının qarşısı alınmışdır.

Azərbaycanın nadir sayılan 28 sort və forması (24 mədəni-Ağşirə, Əziz, Bilaqani, Varandeni, Gül mərəndi, Danqur, Dostluq, Kanaçeni, Xart-xart, Milaq, Foqeltrauben, Xəzəri, Şirvanşahı və s.; o cümlədən 4 yabanı nümunə) Rusiyanın milli üzüm kolleksiyasında (Kuban Dövlət Aqrar Universitetinin Anapa TS-da) əkilib-becərilir. Adıçəkilən sort və formaların ampeloqrafik əlamətləri təsvir edilmiş, morfometrik göstəricilərinin identifikasiyası məqsədilə klaster analizləri aparılmış, morfotipləri ayırd edilmişdir.

Azərbaycanın yerli üzüm sortlarının molekulyar genetik tədqiqi və genofond mübadiləsi məqsədilə Çexiya Respublikasının "Vinselekt Michlovsky" Şirkəti ilə (Grape breeding project manager) əməkdaşlıq çərçivəsində 10 sort Çexiyaya, onlardan isə 10 sort ÜŞETİ-yə göndərilmişdir.

2013-cü ilin oktyabr ayında COST təşkilatının layihəsi çərçivəsində Sevilya Universitetinin (İspaniya) Entomologiya laboratoriyasının professoru Rafael Ocete Rubio və Gürcüstan ET Mü və Şİ-nun əməkdaşı David Maqradze elmi ekspedisiyaya gəlmiş və şöbənin əməkdaşları ilə birilikdə Quba-Xaçmaz bölgəsində tədqiqatlar aparılmış və yabanı üzüm formalarının bir çox göstəriciləri araşdırılmışdır. Həmçinin, beynəlxalq əməkdaşlıq çərçivəsində Cənubi Qafqazda yabanı üzümün mənşə və mədəniləşdirilmə tarixinə dair bəzi sualları aydınlaşdırmaq üçün Cənubi Qafqaz regionunda təbii halda yayılmış bəzi yabanı üzüm biotipləri aşkarlanaraq, ampeloqrafik təsvir olunmuş, arealı və koordinatları təyin edilmiş, molekulyar-genetik tədqiq olunmuşdur. Beləliklə, Cənubi Qafqaza aid dörd müxtəlif haplotip qrupunun (AAA, ATT, GTA və ATA) 3-nün Azərbaycanda aşkar edilməsi, ölkəmizin üzümün əsas mənşə və yaranma mərkəzlərindən biri olması faktını sübut etmişdir. Yabanı üzümün tədqiqatı zamanı əldə olunan nəticələr əsasında ingilis dilində Almaniyanın "Vitis" jurnalında məqalələr nəşr edilmişdir.

Son dövrlər ekspedisiyaların gedişində meşələr qırılması, həmçinin, yabanı üzüm tənəklərinin məhv edilməsi halları çoxalmışdır. Bu məqsədlə KTN-nin Üzümçülük və Şərabçılıq ET İnstitutunda və AMEA Genetuk ehtiyatlar İnstitunda respublika üzrə üzüm bitkisinin davamlı və məqsədyönlü istifadəsini həyata keçirmək üçün, onun respublikamızın ərazisində mövcud olan genetik ehtiyatlarının inventarlaşdırılması, toplanılması, öyrənilməsi və artırılması istiqamətində tədbirlərin davam etdirilməsi həyata keçirilir.

Təbiətin ağır sınaqlarından uğurla çıxaraq bu günümüzə gəlib çatmış qiymətli yerli üzüm sortlarının potensialından səmərəli istifadə etməklə Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən üzümçülük və şərabçılıq sahəsində qarşıya qoyulan mühüm hədəflərə nail olmaq, o cümlədən "Made in Azerbaijan" brendinin istehsalının artırılması, ölkənin ixrac potensialının gücləndirilməsi ilə xalqımızın rifahı naminə çox böyük uğurlar əldə olunacaqdır.

**Vüqar SƏLİMOV,**
**Azərbaycan ET Üzümçülük və Şərabçılıq İnstitutunun direktoru, aqrar elmlər doktoru.**

# Milli Qəhrəmanın anım günü qeyd edildi






Samux rayonunda Milli Qəhrəman İsgəndərov Elton Xaləddin oğlunun anım günlərində tədbir iştirakşıları ilk öncə şəhidin qəbrini ziyarət edilərək üzərinə tər-qərənfillər qoydu, ruhuna dualar oxundu. Sonra, Qəhrəmanın adını daşıyan Əhmədbəyli kənd tam orta məktəbinin önündə qəhrəmanın əziz xatirəsinə qoyulmuş barelyef açıldı və məktəbdə Milli Qəhrəmanın şərəfinə yaradılmış muzeylə tanışlıq oldu.

Tədbiri giriş sözü ilə açan **Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev** qeyd etdi ki, Elton İsgəndərov 2009-cu il iyunun 18-də Cəlilabad rayonu istiqamətində sərhəd pozucuları ilə döyüşə girib, düşmənin bir neçə əsgərini məhv edib. Döyüşün ağır yerində sərhəd pozucularının biri sərhədçilərimizin cəm dayandığı mövqeyə qumbara atdığını görən cəsur əsgər dərhal özünü qumbaranın üzərinə ataraq öz həyatı bahasına əsgər və zabitlərimizin həyatını xilas edib. O, bu hərəkəti ilə Azərbaycan oğullarının vətən uğrunda lazım gələrsə, canlarından belə keçə biləcəyini sübut edərək gənc nəsillərə nümunə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti əsgərimizin göstərdiyi bu şücayəti nəzərə alaraq 25.06.2009-cu il tarixli 349 saylı Sərəncamı ilə İsgəndərov Elton Xaləddin oğluna ölümündən sonra Milli Qəhrəman adını verdi.

Tədbirdə iştirak edən Xaləddin İsgəndərov oğlunun qəhrəmanlığı ilə fəxr etdiyini və Azərbaycanımızda Elton kimi vətənpərvər oğlanların sayının minlərlə, olduğunu vurğuladı. Göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə, rayon rəhbərliyinə və tədbir iştirakçılarına öz minnətdarlığını bildirdi.

Çıxış edən Dövlət Sərhəd Xidmətinin şəxsi heyət üzrə baş idarənin rəisi Kinyaz Qaralov qəhrəmanımızın şərəfli xidmətindən danışaraq qeyd etdi ki, bu gün Elton İsgəndərov qəhrəmanlığı ilə gənclərimiz üçün ən böyük qürur mənbəyidir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Türk dünyasının mədəniyyət paytaxtında rəsm sərgisi keçirildi

Bu günlərdə 2019-cu ilin "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilən Qırğızıstanın Oş şəhərində "Qədim Oş XXI əsr rəssamlarının gözü ilə" adlı rəsm sərgisi keçirilib. Oşun "Suleyman Too" muzeyində təşkil olunan sərgidə türk dünyasını təmsil edən 10 ölkədən 11 rəssamın sənət əsəri nümayiş



olunub. Sərginin açılışında Oş Bələdiyyə başçısının müavini Jasur Azimov, "TÜRKSOY"un Qırğızıstan təmsilçisi Kocagəldi Kuliyev, "TÜRKSOY"un baş katibliyinin inzibati maliyyə və hüquqi məsələlər şöbəsinin müdiri Sancar Mülazimoğlu, rəssamlar və sənətsevərlər iştirak ediblər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi, bir sıra sərgilərin iştirakçısı Pərviz Ələkbərli də sərgidə iştirak edərək məşhur "Qarabağ atı"nı və Qırğızıstanın gözəl təbiətini kətan üzərində əks etdirən rəsm əsərlərini nümayiş etdirmişdir. Həmyerlimizlə yanaşı sərgidə iştirak edən Umurbek Jhubanıyazov (Qazaxıstan), Mehmet Ali Doğan (Türkiyə), Hojaqulu Hojaquluyev (Türkmənistan), Mehmet Sareler (K.K.T.C.), Lea Toth (Macarıstan), Semen Nikiyorov (Saha Yakut RF), Argul İshberdina (Başqırdıstan RF), Khursud Nazarov (Özbəkistan), Saparbay Osmanalıyev və Rubanıç Mamarayunovun (Qırğızıstan) əsərləri qədim Oş sakinləri tərəfindən böyük maraqla qarşılanmış, iştirakçılara hədiyyə və sertifikatlar təqdim olunmuşdur.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törədib qaçmaqda şübhəli bilinən sürücü məsuliyyətə cəlb olunub

**Sabunçu rayonu ərazisində yol-nəqliyyat hadisəsi törədərək qaçan sürücü rayonun polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində tutularaq istintaqa cəlb edilib.**

Bakı Şəhər Baş Polis İdarəsinin və Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, iyunun 17-də paytaxtın Sabunçu rayonunun Bakıxanov qəsəbəsi ərazisində 1985-ci il təvəllüdlü Zamiq Məmmədov idarə etdiyi "Hyundai" markalı 10-FS-939 dövlət qeydiyyat nişanlı avtomobillə yolu keçmək istəyən piyada 1952-ci il təvəllüdlü Zemfira Rozakovanı vuraraq hadisə yerindən qaçıb. Hadisə nəticəsində piyadanın aldığı xəsarətlərdən ölməsi faktına görə Sabunçu Rayon Polis İdarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda) və 264-cü (yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hadisə yerinə baxış keçirilib, zəruri ekspertizalar təyin olunub və digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

İlkin istintaqla hadisənin Z.Məmmədov tərəfindən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını kobud surətdə pozaraq törədilməsi və yol-nəqliyyat hadisəsi yerindən qaçmasına əsaslı şübhələr müəyyən edildiyindən o, iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunub. Ona Cinayət Məcəlləsinin həmin maddələri ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# "AzerGold" QSC iqlim dəyişikliyi mövzusunda növbəti təlim keçirib ®

19-20 iyun 2019-cu il tarixlərində "AzerGold" QSC-nin Korporativ Sosial Məsuliyyət Komitəsi Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə tərəfdaşlıq çərçivəsində Naxçıvan şəhərində "Fərdi aqrar təsərrüfatların iqlim dəyişikliyinə adaptasiyası" mövzusunda təlim təşkil edib. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Mayis Əliyev, Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Soltan Məmmədov, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədr müavini Nadir Adilov, Milli Hidrometeorologiya xidmətinin direktor müavini İmran Əbdulov iqlim dəyişikliyinin təsirləri ilə mübarizə istiqamətində ölkədə görülən tədbirlər haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib, dövlətlə yanaşı, hər bir özəl müəssisənin də bu istiqamətdə daha fəal olmasının önəmini vurğulayıblar.



İki günlük tədbir zamanı Naxçıvan Muxtar Respublikasının müxtəlif bölgələrində heyvandarlıq və bitkiçilik sahəsində fəaliyyət göstərən 60-dan çox sahibkar iqlim dəyişikliyi şəraitində su, torpaq və bitki idarəçiliyi, kənd təsərrüfatında mövcud innovasiyalar, iqlim dəyişikliyinə məruz qalan təsərrüfatlara qanunvericilikdə nəzərdə tutulan güzəştlər haqqında praktik biliklər əldə ediblər. Bundan əlavə, sahibkarları maraqlandıran suallar ekologiya və təbii sərvətlər və kənd təsərrüfatı nazirliklərinin, elm və təhsil ocaqlarının ixtisaslaşmış mütəxəssisləri tərəfindən cavablandırılıb. Geniş müzakirələrin və fikir mübadiləsinin aparıldığı təlimin sonunda sahibkarlar müvafiq sertifikatlarla təltif olunublar.

Qeyd edək ki, bu ilin aprel ayında Bakıda Gəncə-Qazax, Aran və Lənkəran iqtisadi rayonlarında kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən 50-yə yaxın sahibkara iqlim dəyişikliyi mövzusunda 4 günlük təlim təşkil olunub. Rəsmi dövlət qurumlarının, elm və təhsil ocaqlarının, müstəqil ekspertlərin təlimçi qismində iştirak etdiyi bu təlimlər əmək qabiliyyətli əhalinin böyük hissəsinin məşğul olduğu kənd təsərrüfatının iqlim dəyişikliyinə adaptasiyasına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, regionlarda sosial rifahın daha da yüksəlməsinə dəstək göstərmək və bununla da "Dayanıqlı İnkişaf üzrə Qlobal Hədəflər 2030"-a nail olunmasına töhfə vermək məqsədlərini daşıyır.

Xatırladaq ki, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Paris Sazişinə 26 oktyabr 2016-cı il tarixindən etibarən qoşulub və bu istiqamətdə ölkəmizdə silsilə tədbirlər həyata keçirilir.

## Project Implementation Unit of the Ministry of Health

## Recruitment announcement

The Project Implementation Unit of the Ministry of Health of Azerbaijan Republic and the Global Fund to Fight H?V/AIDS, Tuberculosis and Malaria announce recruitment of persons for the below listed positions on "Scaling up the response to the HIV epidemic through strengthening national capacities and prevention and treatment services for most at risk population" and "Maintaining Access to and Quality of Essential M/XDR-TB Services in Azerbaijan" programs

**1. Coordinator on HIV/AIDS and Tuberculosis (TB) programs**

Required qualifications for HIV/AIDS and TB Program Coordinator:

- Master's Degree or equivalent in Medical & Health Sciences or related field.
- At least five years of relevant experience in Public Health including at least three years in participatory assessment and monitoring, data processing or analysis, project design
- Training, facilitation and communication skills
- Good contextual knowledge of the local health care system, community priorities and social and cultural constraints and realities in HIV/AIDS and TB area. Previous work with international organizations and field work experience an asset.
- Fluency in English and Azerbaijani
- Good Computer skills

**2. Procurement officer on HIV/AIDS and Tuberculosis (TB) programs**

Required qualifications for Procurement officer on HIV/AIDS and Tuberculosis (TB)programs:

- At least three years relevant professional work experience in procurement management; preferably in the context of the health-related programs
- Experience with United Nations, The Global Fund and/or World Bank procurement rules and regulations and university degree
- Fluency in English and Azerbaijani
- Good computer skills (Microsoft Office)

**CVs should be sent to the following e-mail cv@gfatm.az** no later than July 10, 2019 till 05.00 pm Acknowledgement will be sent to short listed candidates only. Detailed information about Terms of References for announced position can be found on website: www.gfatm.az.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin 03 iyun 2019-cu il tarixdə keçirdiyi Açıq tenderdə qalib gəlmiş "EMA" MMC ilə 20.06.2019-cu il tarixdə satınalma müqavilə imzalanmışdır.

**Tender Komissiyası.**

## Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

## AÇIQ TENDER ELAN EDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2011-ci il tarixli 149s №-li Sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmiş və "Dövlət Proqramı"na edilmiş əlavələrə əsasən Dövlət Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması məqsədi ilə qəsəbələrin, çoxmərtəbəli binaların, fərdi yaşayış evlərinin layihələndirilməsi və onların tikintisi ilə bağlı işlərin həyata keçirilməsi MKSİF-ə həvalə olunmuşdur.

**Lot 1,** "Göygöl şəhəri ərazisində 130 məcburi köçkün ailəsi üçün zəruri texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 1 ədəd 5 mərtəbəli 40 mənzilli yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (bir yüz əlli) manat;**

**Lot 2,** "Göygöl şəhəri ərazisində 130 məcburi köçkün ailəsi üçün zəruri texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 1 ədəd 5 mərtəbəli 50 mənzilli yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (bir yüz əlli) manat;**

**Lot 3,** "Göygöl şəhəri ərazisində 130 məcburi köçkün ailəsi üçün zəruri texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 1 ədəd 5 mərtəbəli 40 mənzilli yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (bir yüz əlli) manat;**

**Lot 4,** "Göygöl şəhəri ərazisində 130 məcburi köçkün ailəsi üçün zəruri texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində xarici və məhəllədaxili texniki infrastrukturun tikintisi"

**İştirak haqqı: 120 (bir yüz iyirmi) manat;**

MKSİF yuxarıda göstərilən tikinti işləri üzrə iştirak hüququ olan iddiaçıları möhürlənmiş zərflərdə tender təklifləri təqdim etməyə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər yuxarıda göstərilən məbləğlərdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Tbilisi prospekti 57D, (MKSİF) ünvanından, tel.: (+99421) 4318703, 4318769) ala bilərlər.

*Təşkilat: "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu"*
*VÖEN-i: 1400305341*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*VÖEN (bank): 1401555071*
*Hesab nömrəsi: AZ29CTRE00000000000005728225*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*Kod: 210005*
*S.W.İ.F.T.: CTRE AZ 22*
*Təsnifat kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*-iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1%-i həcmində bank qarantiyası (tender təklifinin qarantiyasının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olması müddətindən 30 (otuz) bank günü çox olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*-tender iştirakçılarının (iddiaçıların) son 3 (üç) ildə yerinə yetirdikləri analoji işlərinin dəyəri tender predmetinin qiymətinə müvafiq olmalıdır;*
*-iddiaçının müvafiq tikinti işlərinin görülməsinə olan xüsusi icazə (lisenziya) sənədinin surəti;*
*-iddiaçının mülkiyyətində olan maşın, mexanizm və avadanlıqların növü və xüsusiyyətləri haqqında arayış;*
*-iddiaçının ixtisas göstəriciləri haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyası istisna olmaqla) 19 iyul 2019-cu il saat 18.00-a qədər, tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyasını isə möhürlənmiş ikiqat zərfdə 01 avqust 2019-cu il saat 18.00-a qədər Bakı şəhəri, Tbilisi prospekti 57D (MKSİF) ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 02 avqust 2019-cu il tarixdə, saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 11 iyun 2019-cu il tarixində "Respublika" qəzetində "Göygöl şəhəri ərazisində 130 məcburi köçkün ailəsi üçün zəruri texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 3 ədəd 5 mərtəbəli yaşayış binasının və texniki infrastrukturun tikintisi" üzrə dərc edilmiş elan www.tender.gov.az saytında yaranmış texniki səbəblərdən ləğv olunur.

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ

TƏKRAR

***2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və maliyyə təminatı nazirlik tərəfindən həyata keçirilən məhkəmələrin istismarında olan avtomatlaşdırılmış sistemlər, informasiya-kommunikasiya avadanlığı, şəbəkə infrastrukturunun saxlanılması və inkişafı, habelə onlara texniki dəstəyin göstərilməsi ilə əlaqədar***

## AÇIQ TENDER ELAN EDİR

**Tender 2 Lot üzrə keçirilir:**

**LOT-1.** Ədliyyə Nazirliyinin struktur qurumlarının istismarında olan avtomatlaşdırılmış sistemlər, informasiya-kommunikasiya avadanlığı, şəbəkə infrastrukturunun saxlanılması və inkişafı, habelə onlara texniki dəstəyin göstərilməsinin satınalınması.

